

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## HEYDƏR ƏLİYEV və Naxçıvan



8

SƏS

№ 081 (7006)

9 may 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan-Bolqarıstan: etibarlı və sınanmış tərəfdaşlıq



2

Prezident İlham Əliyev: "Azərbaycan Avropa məkanı üçün təkcə neft-qaz təchizatçısı kimi deyil, eyni zamanda, yaşıl enerji təchizatçısı kimi özünü göstərəcək"

# Paşinyan Putinlə "dil" tapa biləcəkmi?



Ermənistanın baş naziri və Rusiya prezidenti ikitərəfli fikir ayrılıqlarını müzakirə edəcəklər

6

### YAP Mərkəzi Aparatında Vyetnam-Azərbaycan və Laos-Azərbaycan dostluq qruplarının nümayəndə heyətləri ilə görüş keçirilib



4

### Erməni kilsəsinin gətirdiyi İDEOLOJİ BƏDBƏXTLİK



5

### 9 may - alman faşizmi üzərində Qələbədən 79 il ötür




7

### Xərçəng yaradan KERATİN: DƏHŞƏTLİ FƏSADLAR



12

### Kimlər əmək pensiyasına 5 il tez çıxmaq hüququna sahibdir?




16

# Azərbaycan-Bolqarıstan: etibarlı və sınanmış tərəfdaşlıq

## Prezident İlham Əliyev: "Azərbaycan Avropa məkanı üçün təkcə neft-qaz təchizatçısı kimi deyil, eyni zamanda, yaşıl enerji təchizatçısı kimi özünü göstərəcək"

**Regionda, beynəlxalq aləmdə Azərbaycanla bağlı baş verənlər, böyük siyasi güclərin ölkəmizə münasibəti, Cənubi Qafqazın əsas söz sahibi olan Azərbaycanla dünya dövlətlərinin əməkdaşlığa böyük önəm verməlri ölkəmizlə münasibətlərin qurulmasına maraqlı olduqlarını birmənalı şəkildə göstərmiş olur. Azərbaycanın xarici siyasətində dünya ölkələri, o cümlədən Avropanın böyük dövlətləri ilə olan əlaqələr müstəsnadır. Dünyada etibarlı tərəfdaş imicini ölkəmizə qazandıran beynəlxalq layihələrdə göstərilən etimad, paytaxtımızda keçirilən möhtəşəm beynəlxalq tədbirlər, yarışlar, dövlətimizin beynəlxalq və regional layihələrdə əsas iştirakçı qismində çıxış etməsi bu əlaqələrin yüksək səviyyədə olmasına dəlalət edir.**

Azərbaycan-Bolqarıstan əlaqələri də dövlətimizin xarici siyasətində xüsusi əhəmiyyət daşıyır. Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycanla münasibətlərin inkişafına əhəmiyyət verən Bolqarıstan ikitərəfli əlaqələrin yüksək səviyyədə saxlanılmasında maraqlıdır. Hər iki dövləti ənənəvi dostluq, anlaşma və qarşılıqlı etimada əsaslanan əlaqələr birləşdirir. Dövlətlərarası yüksək səviyyədə siyasi dialoq mövcuddur. Bu təkcə Azərbaycan və Bolqarıstanın deyil, həmçinin Qafqaz və Qara dəniz hövzəsinin də iqtisadi firavanlığının təmin olunmasına yaxşı zəmin yaradır.



Son illərdə Azərbaycan və Bolqarıstan arasındakı əməkdaşlıq daha da genişlənir və inkişaf edir. İki ölkə arasında iqtisadi əməkdaşlıq, ticarət və investisiya sahələrində əməkdaşlıq artmaqdadır. Həmçinin mədəni əlaqələr də vacib yer tutur. Müxtəlif sahələrdə əməkdaşlığı artırmaq məqsədilə mütəmadi şəkildə səfərlər təşkil olunur, görüşlər, forumlar, tədbirlər keçirilir.

### STRATEJİ TƏRƏFDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİ HAQQINDA BİRGƏ BƏYANNAMƏ







Mayın 8-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin ölkəmizə rəsmi səfəri qarşılıqlı əlaqələrin davamı olduğunun təzahürüdür. Səfər çərçivəsində ikitərəfli münasibətlər, mövcud vəziyyət, qarşıda duran çağırışlar müzakirə olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin iştirakı ilə Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə"ni imzalayıblar."Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Asarel Investment" arasında Anlaşma Memorandumu" və digər sənədlərin də imzalanması olub.

*Ardı Səh. 3*

# Azərbaycan-Bolqarıstan: etibarlı və sınanmış tərəfdaşlıq

## Prezident İlham Əliyev: "Azərbaycan Avropa məkanı üçün təkcə neft-qaz təchizatçısı kimi deyil, eyni zamanda, yaşıl enerji təchizatçısı kimi özünü göstərəcək"





## Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Bolqarıstanın birinci xanımı Desislava Radeva ilə görüşü olub

Mayın 8-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Bolqarıstan Respublikasının birinci xanımı Desislava Radeva ilə görüşü olub.

**Əvvəli Səh. 2**

Vurğulamaq yerinə düşər ki, iki ölkə arasında diplomatik əlaqələr 1992-ci ildə qurulmuşdur. Dövlət başçılarının qarşılıqlı səfərləri bu əlaqələrin dərinləşməsində əhəmiyyətli rol oynayır. Səfərlər çərçivəsində Azərbaycan və Bolqarıstan arasında birgə Bəyannamə, Şəki və Qalerovo arasında qardaşlaşmış şəhər nümayəndəliyinin yaradılması haqqında birgə Bəyannamə, dövlətlərarası səhiyyə və tibb elmi sahəsində saziş və s. imzalanmışdı. 2015-ci ildə Bolqarıstanla Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə ölkələrarası əlaqələrin yüksək mərhələyə qalxmasına səbəb olub.

Azərbaycan və Bolqarıstanın mədəni və siyasi-iqtisadi sahədə əməkdaşlığı, iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətlərinin daha da güclənməsinə və bölgədə mövqelərinin artmasına kömək edir. Mədəni əlaqələrin inkişafı hər iki ölkə üçün mühüm yer tutur. Bu baxımdan, bir sıra şəhərlərimiz qardaşlaşıb, hər iki ölkənin yumor şəhərləri olan Şəki-Qabrovo, Naxçıvan-Veliko-Tırnovo, Sumqayıt-Burqas, Gəncə-Plovdiv şəhərləri arasında əlaqələr genişlənib, həmçinin muzey və tarixi yerlərdə qarşılıqlı olaraq yenidənqurma və bərpa işləri görülüb. Heydər Əliyev Fondunun dəstəyi ilə Trapezitsa memarlıq muzey-qoruğu, Qərb divarının yenidən qurulmasına və Bolqarıstanda orta əsrlər dövrünə aid 3 kilsənin yenidən qurulmasına maliyyə yardımı göstərib.

### "KEÇƏN İL 1 MİLYARD 250 MİLYON KUBMETR AZƏRBAYCAN QAZI BOLQARISTAN BAZARINA NƏQL EDİLMİŞDİR"

Onu da bildirək ki, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Memorandum imzalanmışdır. Yeni və çoxşaxəli qaz nəqliyyat infrastrukturu bir çox ölkələri təbii qazla təmin edilməsinə imkan yaratmış olur. "Azərbaycan qazının Bolqarıstana ixracı ildən-ilə artmaqdadır". Bu sözləri Prezident İlham Əliyev Bolqarıstan Prezidenti Rumen Radevlə mətbuata bəyanatında deyib.

"Keçən il 1 milyard 250 milyon kubmetr Azərbaycan qazı Bolqarıstan bazarına nəql edilmişdir. Müqayisə üçün deyə bilərəm ki, 2022-ci ildə bu rəqəm cəmi 600 milyon idi", - deyə dövlətimizin başçısı əlavə edib.

Onu da qeyd edək ki, strateji layihə olan Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru həm Bolqarıstan, həm də Şərqi Avropa üçün çox mühüm layihədir. Bu interkonnektor ilk dəfə olaraq, Bolqarıstanın Azərbaycandan təbii qaz almasına imkan verir. Avropanın enerji xəritəsini dəyişdirəcək bu layihə təkcə iki ölkə arasında deyil, bütün regionda iqtisadi əməkdaşlığı inkişaf etdirməyə yeni imkanlar yaradıb.

Azərbaycan Bolqarıstan üçün enerji sahəsində mühüm, həlledici tərəfdaşa çevrilib və qaz təchizatının şaxələndirilməsində vacib rol oynayır. Cənab Prezident çıxışında onu da bildirib ki, Azərbaycan tərəfdaş ölkələrlə, o cümlədən Bolqarıstanla yaşıl enerji kabeli istiqamətində çox fəal iş aparır. Bir neçə aydan sonra hazır olacaq texniki-iqtisadi əsaslandırmanın işlərin başlanması üçün gözəl zəmin olacağını vurğulayan dövlətimizin başçısı bildirib: "Beləliklə, Azərbaycan Avropa məkanı üçün təkcə neft-qaz təchizatçısı kimi deyil, eyni zamanda, yaşıl enerji təchizatçısı kimi özünü göstərəcək. Potensial kifayət qədər genişdir və biz bu barədə eyni zamanda ilin sonunda COP29 konfransında da danışacağıq".

COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı hesab oluna bilər. İqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq COP29 çərçivəsində Azərbaycan gündəliyinin yaşıl enerji ilə bağlı olmasını bir daha sərgiləyəcəkdir. Bildiyimiz kimi, yaşıl enerjinin inkişafı və yaşıl enerjinin dünya bazarlarına çıxışı Azərbaycanın enerji siyasətinin prioritetləri sırasındadır.

COP28-in gündəliyinə böyük maraq var idi. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır. COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı hesab oluna bilər. Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi Azərbaycanın davamlı inkişaf istiqamətindəki qlobal səylərə olan sadiqliyinin daha bir ifadəsidir.

### "AZƏRBAYCANIN SƏRMAYƏSİ SAYƏSİNDƏ BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNUN MODERNLƏŞDİRİLMƏSİ BİR NEÇƏ GÜN BUNDAN ƏVVƏL TAM BAŞA ÇATIB"

"Şərq-Qərb və əks istiqamət üzrə daha böyük həcmdə yüklərin daşınması münasibətlərimizi daha da gücləndirəcək", - deyən Prezident Azərbaycanın sərmayəsi sayəsində Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsinin bir neçə gün bundan əvvəl tam başa çatdığını diqqətə çəkib. Bu dəmir yolunun ötürmə qabiliyyətinin bir neçə dəfə artırıldığını vurğulayan dövlətimizin başçısı qeyd edib: "Vaxtilə Azərbaycan tərəfindən təşəbbüs kimi irəli sürülmüş bu layihə bu gün imkanları genişləndirilmiş şəkildə Orta Dəhlizin önəmli seqmenti kimi mühüm rol oynayacaq."

Əlbəttə ki, səfər çərçivəsində müxtəlif sahələr üzrə dövlətlərarası mübadilənin gücləndirilməsi də nəzərə alınıb. Bütün bu və ya digər məsələlər dövlətlərarası münasibətlərin daha da dərinləşməsinə yeni perspektivlər açacaqdır. Azərbaycan etibarlı və sınanmış tərəfdaşdır. Bolqarıstan ilə Azərbaycan arasında bütün sahələr üzrə səmərəli münasibətlər daha da inkişaf edəcəkdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# YAP Mərkəzi Aparatında Vyetnam-Azərbaycan və Laos-Azərbaycan dostluq qruplarının nümayəndə heyətləri ilə görüş keçirilib









**Mayın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam-Azərbaycan və Laos-Azərbaycan dostluq qruplarının nümayəndə heyətlərini qəbul edib.**

Qonaqları salamlayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın istər Vyetnam, istərsə də Laosla xüsusilə də BMT və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlıq əlaqələrinə malik olduğunu qeyd edib. Xalqlarımız arasındakı münasibətlərin təməlinin hələ SSRİ dövründə qoyulduğunu diqqətə çatdıran Tahir Budaqov Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyətinə diqqəti cəlb edib. O, həm Vyetnam, həm də Laosdan olan çox sayda tələbənin SSRİ dövründə Azərbaycanda ali təhsil aldıqlarını, onlardan bir çoxunun ölkələrinə qayıtdıqdan sonra yüksək vəzifələrdə çalışdıqlarını və ictimai-siyasi həyatda fəal rol oynadıqlarını, eləcə də ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm töhfələr verdiklərini söyləyib.

Tahir Budaqov vurğulayıb ki, qarşılıqlı səfərlər dövlətlərarası əməkdaşlığın dərinləşməsinə təkan verir. YAP Sədrinin müavini 2014-cü ildə Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasına dövlət səfərinin, 2015-ci ildə isə Vyetnam Prezidenti Truonq Tan Sanqın Azərbaycana rəsmi səfərinin bu kontekstdə xüsusi önəm daşıdığını bildirib.

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Yeni Azərbaycan Partiyasının hakim partiyalar olan Vyetnam Kommunist Partiyası (VKP) və Laos Xalq İnqilab Partiyası (LXİP) ilə əlaqələri möhkəm təməllər üzərində inkişaf etməkdədir. O, 2022-ci ilin noyabrında LXİP nümayəndə heyətinin Yeni Azərbaycan Partiyasının 30 illik yubiley tədbirində və Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) YAP-ın ev sahibliyi ilə keçirilən ”Təhlükəsizlik və əməkdaşlıq: Siyasi partiyaların rolu” mövzusunda xüsusi konfransında iştirakının, eləcə də VKP nümayəndə heyətinin ICAPP-ın sözügedən xüsusi konfransına onlayn formatda qatılmasının, 2022-ci il noyabrın 24-də ölkəmizə səfəri çərçivəsində VKP nümayəndə heyəti ilə keçirilən görüşün, həmçinin VKP-nin dəvəti ilə YAP nümayəndə heyətinin 2023-cü il 19-24 noyabr tarixlərində Vyetnama səfərinin və bu çərçivədə partiyalar arasında əməkdaşlıq sazişinin imzalanmasının əhəmiyyətini xüsusi vurğulayıb. O qeyd edib ki, YAP-ın həm VKP, həm də LXİP ilə imzaladığı əməkdaşlıq sazişindən irəli gələn vəzifələrin icra olunması qarşılıqlı faydalı işbirliyinin inkişafına xidmət edir.







Vyetnam nümayəndə heyətinin rəhbəri, Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası sədrinin müavini, Vyetnam Sosialist Respublikası Elmlər Akademiyasının eksperti Fam Honq Kuan səmimi qəbula görə təşəkkür edərək Azərbaycana yenidən səfər etməkdən son dərəcə məmnun olduqlarını bildirib.

O, dostluq və tərəfdaşlıq əlaqələrinə malik olan Azərbaycan ilə Vyetnam arasında münasibətlərin yüksələn xətlə inkişafının məmnunluq doğurduğunu söyləyib.

Ali təhsilini ölkəmizdə aldığını və Azərbaycan xalqının dost münasibətini daim hiss etdiyini bildirən Fam Honq Kuan respublikamızın uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Vyetnam nümayəndə heyətinin rəhbəri səfər çərçivəsində Şuşa və Füzuli şəhərlərini ziyarət etdiklərini və işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma işlərinin əyani şahidi olduqlarını qeyd edib.

Laos nümayəndə heyətinin rəhbəri, Laos Xalq Demokratik Respublikasının energetika və mədənlər nazirinin müavini Sonqfat İntsavonq da Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu ifadə edib. O, səfər çərçivəsində keçirilən görüşlərin ölkələrarası münasibətlərin inkişafına mühüm töhfə olacağını diqqətə çatdırıb. Sonqfat İntsavonq Azərbaycan ilə Laos arasında müxtəlif sahələrdə mübadilələrin aparılmasının önəmindən bəhs edib və ölkələrarası əməkdaşlığı dərinləşdirmək üçün geniş potensialın mövcud olduğunu söyləyib.

S.İntsavonq Azərbaycanda ali təhsil aldığı illərin onun üçün unudulmaz və əlamətdar olduğunu qeyd edərək ölkəmizin qısa müddət ərzində sürətli inkişaf yolu keçdiyini vurğulayıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər də müzakirə edilib.

Sonda qonaqlara hədiyyələr təqdim olunub və xatirə fotosu çəkdirilib.



## Baş nazir Əli Əsədov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb

Türkiyəyə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 8-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb. Nazirlər Kabinetinin rəsmi açıqlamasında deyilir ki, Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Türkiyə dövlətinin başçısına çatdırdı.

Baş nazir cari ilin noyabrında Azərbaycanda keçiriləcək COP29-da iştirakla bağlı Prezident İlham Əliyevin dəvət məktubunu Prezident Rəcəb Tayyib Ərdoğana təqdim etdi.

Görüş əsnasında Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif istiqamətlərdə perspektivləri müzakirə edildi.

## Moskva Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Almatı görüşünü alqışlayır



“Moskva Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyanın mayın 10-da Almatıda keçiriləcək görüşünü alqışlayır.” Bu sözləri Moskvada keçirilən brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova söyləyib. M.Zaxarova deyib: ”Biz mayın 10-da keçirilməsi nəzərdə tutulan bu görüşü alqışlayırıq. Gələcəkdə də Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinə kömək etməyə hazırıq. Xatırladım ki, aprelin 22-də Moskvada Rusiya və Azərbaycan prezidentlərinin danışıqları oldu. Bu gün Rusiya liderinin Ermənistanın baş naziri ilə görüşü olacaq. Bu danışıqların gündəliyində Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi məsələləri var”.



# Erməni kilsəsinin gətirdiyi İDEOLOJİ BƏDBƏXTLİK

***Son vaxtlar Erməni Apostol Kilsəsinin xüsusi "canfəşanlıq" göstərməsi qətiyyən diqqətdən yayına bilməz və bu, elə Ermənistanın özünün də gündəmindədir, çünki haylar üçün yaxşı heç nə vəd etmədiyini artıq onlar özləri də yaxşı bilirlər. Sərhədin delimitasiyasına və Qazax rayonunun ermənilər tərəfindən işğal olunmuş dörd kəndinin Azərbaycana qaytarmaq barədə rəsmi İrəvanın niyyətinə qarşı etiraz aksiyalarına rəhbərlik etmək funksiyasını üzərinə götürən kilsə erməni cəmiyyətini yenə də uçuruma sürükləyir. Öz ideologiyası ilə hər dəfə erməni cəmiyyətinə bədbəxtlik gətirən Erməni Apostol Kilsəsi bu dəfə də haylara eyni aqibəti yaşatmaqda, bədbəxtlik gətirmək niyyətində və missiyasında israrlı görünür.***

## Tarix boyu erməni kilsəsi hayları qarşıdurmalara, münaqişələrə və nəticədə də bədbəxtliklərə sürükləyib

Erməni kilsəsinin hayları tarix boyu qarşıdurmalara, münaqişələrə və nəticədə də bədbəxtliklərə sürüklədiyini xronologiyalar, fakt və arqumentlər təsdiq edir. Kilsə hayların şüurunda tarix boyu elə bir mif formalaşdırıb ki, həmin mif və uydurmalar onları qonşu ölkələrin xalqları ilə dinc, yanaşı və sülh şəraitində yaşamaqdan məhrum edib. Daha doğrusu, sülh şəraitində yaşamalarına öz bədbəxlik gətirən ideologiyaları, uydurduqları mifləri, illüziyaları və yaydıqları düşmənçilik toxumları ilə qətiyyən imkan verməyib. Haylar məhz erməni kilsəsinin illüziyalarının hər zaman qurbanına çevriliblər və onların başlarına gələn bədbəxtliklərin də səbəbkarı elə məhz həmin kilsə olub. Kilsənin uydurduğu və yaydığı ideologiya ermənilərin psixologiyasını pozaraq onlarda torpaq, ərazi iddiaları formalaşdırıb və hayların qonşu ölkələrin, xalqıların torpaqlarına, onlara məxsus maddi və mədəni dəyərlərə göz dikmələri də bundan qaynaqlanır. Hələ də "dənizdən dənizə" uydurmasının və qondarma, dırnaqarası "Böyük Ermənistan" mifinin qalması hayların beyinlərinin kilsənin uydurduğu ideologiya ilə nə dərəcədə pozulduğunu göstərir.

Osmanlı İmperiyası ilə hayları, erməni xalqını düşmən edən və oradan, həmin imperiyadan qoparan da elə erməni kilsəsi oldu. Eyni ilə son dövrlərdə olduğu kimi, həmin dövrdə də Qərb təhrikçilərinin ssenarisi, başçılığı və kilsənin əli ilə haylar türklərə qarşı yönəldildilər. Məhz türklərə qarşı nifrət toxumu da elə həmin zamanlarda səpildi. Bu nifrət toxumu sonralar təkcə türklərə deyil, başda türklər olmaqla, bütün müsəlmanlara qarşı xain hərəkətlərə yol vermələrinə səbəb oldu. Haqqında qeyd olunan həmin o nifrət toxumunu da, xain hərəkətlərə sövq edilmələrini də haylar arasında məhz erməni kilsəsi təlqin etdi və nifrət üzərində qurulan ideologiya nəticə etibarı ilə, dəfələrlə münaqişələrə, qarşıdurmalara səbəb oldu. Deməli, artıq zərrə qədər də şübhə yoxdur ki, ermənilərlə müsəlmanlar arasında toqquşmaların baş verdiyi 1915-ci il hadisələrinin də katalizatoru rolunu məhz kilsə oynamışdı. Qırğınlara səbəb olan həmin tarixi hadisələrdən nəticə çıxarmayan erməni kilsəsi əksinə, həmin hadisələrdən türklərə qarşı daha böyük nifrət yaratmaq üçün sonralar bir vasitə olaraq istifadə etdi. Həmin hadisələri əsas gətirərək, erməni kilsəsi öz mövqelərini gücləndirməyə başladı və artıq dünya güclərinin dəstəyinin hiss etdikdə daha çirkin əməllərə əl atdı, ələlxüsus da "miatsuma", yəni, Azərbaycan ərazisi olan Qarabağın işğalı prosesi üçün haylara bir "xeyir-dua" da verdi və hətta vəhşiliklər, vandallıqlarla müşayiət olunan işğalçı əməllərində onlara rəhbərlik də etdi. Katolikos I Vazgenin, həmin dövrdə, ötən əsrin sonlarında şəxsən Qorbaçovdan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-yə birləşdirilməsinə icazə verməsini xahiş etməsi də təsadüfi deyildi və erməni kilsəsinin missiyasının, niyyətinin mahiyyətini açıb ortaya qoyurdu. Məhz elə SSRİ rəhbərindən Katolikos I Vazgenin etdiyi "xahiş" Azərbaycanın Qarabağ ərazilərinin haylar tərəfindən işğalında, təcavüz faktında, azərbaycanlılara qarşı soyqırımlarda erməni kilsəsinin katalizator rolunu oynamasını təsdiq edən məqamdır. Çünki bunun ardınca SSRİ-nin dağılmasından, əllərinə həmin ölkənin silahlarının keçməsindən, eləcə də yenicə müstəqilliyini bərpa edən ölkədə, yəni Azərbaycanda həmin dövrdə xaosun, hakimiyyətsizliyin olmasından, həmçinin ölkəmizin o zaman iqtisadi qüdrətinin, hərbi potensialının zəif olmasından istifadə edərək, üzərimizə xaincəsinə hücum məhz bu "xahiş"in ardınca oldu. Xocalı kimi dünyada insanlıq dramı olaraq yadda qalan soyqırım və bunun ardınca edilən soyqırımlar, etnik təmizləmələr, vəhşiliklər, vandallıqlar, 30 ilə yaxın müddət ərzində ərazilərimizin işğalda saxlanılması da erməni kilsəsinin katalizatorluq etməsindən sonra baş verdi. Amma bu münaqişədə, müharibələrin gedişində ermənilər özləri də, erməni xalqı da itgisiz ötüşmədi. Ələlxüsus da torpaqlarımızın işğaldan azad olunması üçün aparılan 44 günlük mübarizədə, müharibədə erməni xalqı, haylar çox böyük itgilərə məruz qaldılar. Rüsvayçı məğlubiyyətlə barışmaq məcburiyyətində qalan Ermənistan və kapitulyasiya sənədinə imza atmağa məcbur olan erməni baş nazir oldu, çünki haylar bu mübarizədə Azərbaycan qarşısında diz çökməli oldular. Hərbi, iqtisadi və digər baxımdan Ermənistan dövlətinin verdiyi itgilərlə yanaşı, erməni xalqının da itgiləri yetərincə oldu. Övladlarını itirən saysız-hesabsız erməni ailələri hələ də bununla barışa bilmirlər və uydurma mifləri darmadağın olan haylar həm də bütün dünyada rüsvayçı vəziyyətə, rəzil, məğlub bir duruma düşmüş olduqlarını həzm etməkdə də çətinlik çəkirlər. Yeri gəlmişkən qeyd edək ki, bunu da onlara yaşadan elə məhz erməni kilsəsi oldu. Yəni, erməni xalqının növbəti faciəsinə də səbəb yenə erməni kilsəsi hesab olunur və bunu artıq haylar çox yaxşı bilməlidirlər. Əks halda, bu dəfə də kilsənin onlara yaşadacağı bədbəxtliklə barışmalı olacaqlar. Çünki erməni kilsəsinin yaydığı ideologiya onlara bədbəxtlik gətirir və bundan sonra bu ideologiyada ancaq hayların payı olacaq.

## Erməni kilsəsi yenə də haylara daha bir xəyal, daha bir illüziya sırımağa çalışır

Artıq "miatsum" deyilən cəfəngiyyatın əbədi olmadığı qənaətinə gəlməli olan hayları yenə də erməni kilsəsi azdırmağa çalışır. Erməni vəhşiliyinin, vandallığının, terrorçuluğunun başını Azərbaycan dəmir yumruqla əzdikdən, torpaqlarını işğaldan azad etdikdən, ərazi bütövlüyünü təmin etdikdən, suverenliyini bütün ərazisi boyunca bərpa etdikdən sonra "miatsum" deyilənin bir cəfəngiyyat olduğu və artıq sona çatdığı ortaya çıxsa da erməni kilsəsi yenə də haylara daha bir xəyal, daha bir illüziya sırımağa çalışır. Sərhədlərin demarkasiyasından və məhz Azərbaycana məxsus kəndlərin qaytarılmasından sui istifadə edərək, yenə də erməni cəmiyyətini çaşdırmağa, yenə də qızışdırmağa çalışır ki, bu da nəticədə həmin ölkəni də, erməni xalqını da bədbəxtliyə sürükləyir. Bax elə bu məqamı indi haylar artıq başa düşməlidirlər və bilməlidirlər ki, erməni kilsəsinin yaydığını onlar ancaq ideoloji bədbəxtlik hesab etməlidirlər. Məğlubiyyətlərinə görə indi erməni cəmiyyətində günahkar axtaranlar bilməlidirlər ki, ən güclü siyasətçilər belə erməni xalqına, Ermənistan dövlətinə bu illər ərzində rəhbərlik etsə idilər belə, məhz erməni kilsəsinin yaydığı ideoloji bədbəxrtlik onlara nəticədə yenə də məğlubiyyət, rəzalət və bədbəxtlik gətirməli idi. Bir sözlə, günahı elə erməni kilsəsində, onun yaydığı ideologiyada axtarmaq lazım gəlir. Haylar müharibədəki məğlubiyyətlərində də, bölgədə marginallaşmış duruma düşmələrində də, qlobal və regional layihələrdən kənarda qalmalarında da, rəzalət və səfalət içərisində yaşamalarında da günahı hansısa bir siyasətçidə axtarmamalıdırlar. Günahı ancaq bu məğlubiyyətləri, rəzaləti bəxş edən ideologiyada, başqalarına məxsus olan ərazilərin, maddi və mədəni dəyərlərin mənimsənilməsi təfəkküründə, milli təkəbbür ideologiyasında, yəni erməni kilsəsinin yaydığı ideologiyada, kilsənin özündə axtarmalıdırlar.

## Başlarına gələn bədbəxtliyin səbəbkarının eməni kilsəsi və onun ideologiyası olduğunu haylar dərk etməlidirlər

İndi Erməni Apostol Kilsəsi özünü erməni cəmiyyətində revanşist hisslərin "son sığınacağı" kimi təqdim edir. Doğrudur, həmin kilsənin haylar arasında nüfuzunu sürətlə itirdiyini bizimlə yanaşı elə erməni cəmiyyəti də müşahidə etməkdədir və buna görə də özünü "son sığınacaq" kimi sırıması mənasızdır. Düzdür, erməni cəmiyyətinin özündə belə bəziləri bu nüfuz itgisinə müxtəlif don geyindirməyə çalışırlar və erməni kilsəsinin gözdən düşməsini Qərb liberal dəyərləri, eləcə də ateizm təsirinin artması ilə əlaqələndirməyə çalışırlar. Amma bunu iddia edənlər özləri belə həmin versiyaya qətiyyən özləri də inana bilmirlər. Çünki bilirlər ki, erməni kilsəsinin nüfuzunun itməsində səbəb tamamilə başqadır və bunu hayların, Ermənistan vətəndaşlarının qarşılaşdıqları problemlərdə, faciələrdə axtarmaq daha doğru olar. Beləki, tarix boyu erməni xalqına öz cəfəng illüziyalarını, uydurduğu mifləri, bədbəxtlik gətirən ideologiyanı sırıyan erməni kilsəsinin bu zamana qədərki fəaliyyətinin nəticələrinin necə faciəvi olduğunu görməmək mümkün deyil. Bu da erməni xalqının ideoloji bədbəxtliyidir ki, hələ də hayların bundan canlarını qurtarmalarına məhz erməni kilsəsi imkan vermir.

Heç şübhəsiz ki, haylar bu vaxta qədər başlarına gələn bədbəxtliyin səbəbkarının erməni kilsəsi və onun çürük ideologiyası olduğunu ruhlarının dərinliklərində də olsa dərk etməlidirlər və çox güman ki, dərk edirlər də. Amma bunu ifadə edə, açıq şəkildə etiraf edə bilmirlər, çünki həmin kilsə özü buna imkan vermir və heç hayları göz açmağa belə qoymur. Ona görə erməni kilsəsi hayları göz açmağa qoymur ki, bütün dərdlərinin, bəlalarının, faciələrinin, bədbəxtliklərinin səbəbinin məhz elə kilsə və onun bədbəxtlik gətirən ideologiyası olduğunu haylar etiraf edə bilərlər. Etiraf edə bilərlər ki, onları türklərlə, müsəlmanlarla düşmən edən, arzu olunmaz şəraitdə yaşamalarına rəvac verən məhz həmin o kilsənin ideologiyasıdır. Hətta belə bədbəxtliklərinə, faciələrinə görə erməni kilsəsinin birbaşa məsuliyyət daşıdığını da etriaf edə bilərlər deyə, kilsə onlara göz açmaq şansı belə vermək istəmir. Amma artıq çox gecdir və erməni kilsəsinin təşkil etdiyi etriaz aksiyasının sıralarının çox zəif, az olması təsdiq edir ki, artıq həmin kilsə heç də nüfuz sahibi deyil və bundan sonra haylar çətin ki, onların bədbəxtlik gətirən ideologiyalarına uysunlar. Çünki haylar artıq başa düşürlər ki, erməni kilsəsinin yaydığı ideoloji bədbəxtlikdir və bununla, bu ideologiya ilə onların daha da rəzil vəziyyətə düşə biləçəkləri qətiyyən təkzib edilə bilməz.

***İnam Hacıyev***

# Paşinyan Putinlə "dil" tapa biləcəkmi?

## Ermənistanın baş naziri və Rusiya prezidenti ikitərəfli fikir ayrılıqlarını müzakirə edəcəklər

**Ermənistanda vəziyyət çox acınacaqlıdır. Bir tərəfdən xarici basqılar, digər tərəfdən revanşistlərin kilsənin himayəsi altında hakimiyyətə qarşı sərhəd üsyanı Paşinyanı dizə gətirməkdədir. Amma baş nazir hələlik sakit görünməyə çalışır. Amma qarşısındakı rəqibinin xüsusən kilsə xadimləri olduğunu anlayınca əndişələnir və özünə dəstək axtarır. Rusiyanın daxildən və xaricdən basqılarını da nəzərə almamış deyil. Bunun üçün də bütün umu-küsülərə rəğmən Putinlə "dil" tapmaq üçün Rusiyaya səfərə yollanıb.**



Bu səfərdən Paşinyan nələri gözləyə, yaxud Moskva Qərbdən fərqli olaraq İrəvana nə verə bilər? Ermənistanda Rusiyaya qarşı da münasibət birmənalı deyil və əsasən mənfidir. Azərbaycanla 44 günlük müharibədə uğradığı məğlubiyyəti də üstə gəlsək İrəvanın Kremlə bir o qədər də etibarı qalmayıb. Qərbdən də gözləntilər hələlik özünü doğrultmur. Ukraynada uğradığı fiaskodan yana Qərbin Ermənistan üzərindən açılacaq ikinci cəbhənin ağırlığına dözməyəcəyi də indidən bəllidir. Bunu Ermənistandakılar dayaxşı bilir. Amma edəcəkləri bir şey yoxdur, zəif, həm də çox zəifdirlər.

Ermənistanda baş verənlərdə Rusiyanın əlinin olduğu barədə fikirlər hər gün artmaqdadır. Paşinyan hakimiyyəti də eyni fikirdədir. Rusiyanın 102-ci hərbi bazasının, üstəlik də sərhədlərindəki Federal Təhlükəsizlik Xidmətinin Sərhəd bölmələrinin mövcudluğu, iqtisadiyyatının Rusiyadan asılılığı Ermənistanı taktikanı dəyişməyə vadar edib. Ona görə də baş nazir Nikol Paşinyan Rusiya Federasiyasına işgüzar səfərə getməyə məcbur qalıb.



Moskvada baş nazir Paşinyanın sədrliyi ilə Ali Avrasiya İqtisadi Şurasının iclası keçiriləcək. Ermənistan Respublikasının baş naziri ilə Rusiya Federasiyasının prezidenti arasında da görüş nəzərdə tutulub. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov qeyd etdiyinə görə, Putin və Paşinyan arasında Kremldə baş tutan danışıqlar hər iki tərəf üçün zəruri və gözləniləndir. Daha əvvəl Kreml bildirib ki, son vaxtlar Moskva ilə İrəvan arasında "problemli məsələlər yığılıb". Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Moskvada keçiriləcək görüş hər iki tərəfə lazımdır və gözləniləndir. Putinin çox gərgin iş qrafiki davam edir. Moskvada Ali Avrasiya İqtisadi Şurasının iclası başlayıb, ənənəvi olaraq o dar formatda, genişləndirilmiş formatda olacaq, iştirakçılar mütləq birlikdə şəkil çəkdirəcək, ailə fotosu çəkdirəcəklər.

Maraqlıdır ki, Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatının (AİƏT) müqaviləsinin imzalanmasının onuncu ildönümünə təsadüf edən bu geniş iclasda Özbəkistan və Kuba prezidentləri müşahidəçi qismində iştirak ediblər. Həmçinin, bu tədbirin yekun sənədlərini imzaladıqdan sonra Putin MDB iştirakçılarının nümayəndə heyətlərinin rəhbərləri və Kuba prezidentinin şərəfinə qeyri-rəsmi şam yeməyi verəcəyi gözlənilir. İş gününün sonunda prezident Putinlə Ermənistanın baş naziri Paşinyan arasında ayrıca ikitərəfli görüş də planlaşdırılır. Görüş zəruridir və hər iki tərəfdən gözlənilir.



Hərbi və iqtisadi ittifaqlarda olan hər iki ölkənin rəhbərləri Nikol Paşinyan və Vladimir Putinin görüşü nadir hala gəlib, fikir ayrılıqları səs-küyə çevrilib və artıq heç kim tərəfindən gizlədilmir. Bu, Paşinyanın Rusiya paytaxtına səfərini xüsusilə maraqlı edir. Üstəlik, səfərdən əvvəl mətbuat konfransı zamanı o, Ermənistanda Rusiya dövlət kanallarının yayımını dayandıracağı ilə hədələyib. "Sabah Avrasiya İqtisadi İttifaqının Ali Şurasının iclasına sədrlik etmək üçün Moskvaya gedirəm və Rusiya Federasiyasının prezidenti ilə də ikitərəfli görüş olacaq. Rusiya ilə gündəm çox müxtəlifdir. Bilirsiniz ki, bu müddət ərzində çoxlu suallar yığılıb və onların bəziləri artıq səsləndirilib. Biz heç vaxt fikirləşməmişik ki, suallar yalnız səs xatirinə səsləndirilir. Onlar Ermənistan-Rusiya dostluq münasibətləri kontekstindən neqativ nüansları aradan qaldırmaq məqsədilə səsləndirilir. Təbii ki, biz münasibətlərimizin bütün ikitərəfli və çoxtərəfli gündəliyini müzakirə edəcəyik", - Ermənistanın baş naziri Nikol Paşinyan mayın 7-də İrəvanda mətbuat konfransı zamanı deyib.

Moskvada bir gün əvvəl Ermənistan hökumətinin başçısı ilə yenicə and içmiş Rusiya prezidenti Vladimir Putin arasında görüş elan edilib. Putinin köməkçisi Yuri Uşakov da birbaşa bildirib ki, "toplanmış problemli məsələlər" müzakirə olunacaq. Nikol Paşinyan indi Rusiyada nadir qonaqdır. O, sonuncu dəfə burada ötən ilin dekabrında olub - o, Avrasiya İqtisadi İttifaqının (Aİİ) Ali Şurasının iclasında və MDB-nin qeyri-rəsmi sammitində iştirak edib. 2024-cü ilin ilk dörd ayında Nikol Paşinyan Gürcüstan, Qazaxıstan, Almaniya, Fransa, Yunanıstan, Misir və Belçikaya səfər edib. İndi isə Moskva ilə münasibətlər aşağıya doğru inkişaf etməkdə davam edir.

Bu tendensiyanın daha bir təsdiqi Paşinyanın mətbuat konfransı olub. Ermənistanın baş nazirinin səs-küylü bəyanatlarından biri də Ermənistan ərazisində Rusiya telekanallarının yayımının dayandırılması ilə hədələnməsidir. Ona görədir ki, xəbərlərdə, xüsusən də siyasi tok-şoularda Ermənistanın indiki rəhbərliyinin ünvanına çox sərt tənqidlər səslənir. Mart ayında erməni tərəfi artıq ictimai multipleksdə "Vladimir Solovyovla axşam" və "Vladimir Solovyovla bazar axşamı" tok-şoularının yayımını əngəlləyib.

İndi cənab Paşinyan yeni mümkün sanksiyalardan danışır: "Biz Rusiya kanallarından Ermənistana və onun maraqlarına hörmət etməyi xahiş edirik. Dəfələrlə xahiş etməyə, sonra bir neçə dəfə tələb etməyə hazırıq. Əgər yeddinci dəfədən sonra tələbimizə məhəl qoyulmasa, o zaman bütün bu kanallar bağlanmalıdır". Yeri gəlmişkən, Nikol Paşinyan özü də Rusiya mətbuatını artıq şəxsən "cəzalandırıb": siyasətçi çoxdan Rusiya mediası ilə deyil, Qərb mediası ilə ünsiyyətə üstünlük verib.

Nikol Paşinyanın digər mühüm bəyanatı 2020-ci ilin noyabrında imzalanmış Azərbaycan-Ermənistan-Rusiya üçtərəfli bəyanatı ilə bağlı olub. Bu sənəd Qarabağda genişmiqyaslı hərbi əməliyyatları dayandırdı və Rusiya sülhməramlılarının münaqişə zonasına yeridilməsi üçün əsas oldu. Paşinyan qeyd edib ki, bu bəyanatın heç bir bəndi artıq etibarlı deyil. O cümlədən regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokdan çıxarılacağını bildirən 9-cu bənd daxil olmaqla, Ermənistan "Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası (Azərbaycan eksklavı) arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə vətəndaşların, avtonəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətini təşkil etmək üçün təminat verir". Moskva üçün bu məqamda əsas məsələ "nəqliyyat kommunikasiyalarına nəzarəti Rusiya FSB-nin sərhəd xidməti həyata keçirir" müddəasıdır.

Bu yaxınlarda rus sərhədçilərinin Zvartnots hava limanını tərk etməli olduğunu bildirən İrəvan onların başqa yerdə görünməsindən razı deyil. Güman etmək olar ki, bu üçtərəfli bəyanatı (və xüsusən də 9-cu bənd) yenidən nəzərdən keçirmək Paşinyanla Putin arasında əsas söhbət mövzularından biri olacaq. Digər çətin mövzu Ermənistanın Moskva ilə yanaşı İrəvanın da üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə əməkdaşlığıdır. Ermənistan tərəfi təşkilatda iştirakını dondurub ki, bu da təbii ki, Rusiyaya yaraşmır və ümumiyyətlə, qlobal olmasa da, heç olmasa regional təsir iddiasında olan təşkilatın imicinə xələl gətirir. İrəvanın KTMT-dən şikayəti ondan ibarətdir ki, "Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatlar zamanı alyans müttəfiqini qorumaq üçün qəti addımlar atmayıb".




Moskva ilə İrəvan arasında münasibətlərdə digər problem Rusiyanın vasitəçiliyidir. 2023-cü ilin əvvəlində Moskva Bakı və İrəvanın sülh sazişinə doğru getməsi üçün çox səy göstərdi və eyni zamanda bunun həm danışıqlar, həm də məsləhətləşmələrdə təsdiqlənmiş sülh müqaviləsinin imzalanması üçün platforma olmasını təkid etdi. Eyni zamanda, Rusiya əsas sülhməramlı dövlətin uğurları üçün Qərblə rəqabət aparırdı - Brüssel və Vaşinqton çox fəal idilər və əvvəlcə bu sülhməramlı yarışda kimin üstün olacağı bəlli deyildi. Bakı 2023-cü ilin sentyabrında Qarabağda xüsusi antiterror əməliyyat keçirdikdən sonra hər şey dəyişdi. Rusiya o zaman neytral tərəf rolunu oynayaraq Ermənistanın müdafiəsinə qalxmadı. Qərb İrəvanı dəstəklədi. Nəticədə Ermənistan tərəfi Azərbaycanla Rusiya ərazisində, Bakı isə Qərb platformalarında sülhü müzakirə etməkdən imtina etdi. Sülh sazişi üzrə danışıqlar ikitərəfli formata keçib. Onların növbəti raundu mayın 10-da Qazaxıstanda keçiriləcək: Azərbaycan və Ermənistan Xarici İşlər nazirliklərinin rəhbərləri Ceyhun Bayramov və Ararat Mirzoyan Almatıda görüşəcəklər.

Qazaxıstan KTMT və Aİİ-də Rusiya Federasiyasının müttəfiqi olsa da, Moskvanın Cənubi Qafqazda fəal rol oynamaq istəyi hələ də sönməyib. Bakı Rusiya platformasında danışıqların aparılmasına etiraz etmir, xüsusən də Rusiya bu yaxınlarda öz sülhməramlılarını Qarabağdan çıxardığından, baxmayaraq ki, onlar rəsmi olaraq 2025-ci ilə qədər orada qala bilərdilər. Yalnız Nikol Paşinyanın Rusiya vasitəçiliyinə qayıtması ilə bağlı razılığını əldə etmək qalır.

***V.VƏLİYEV***

# 9 may - alman faşizmi üzərində Qələbədən 79 il ötür




XX əsrdə baş vermiş İkinci Dünya müharibəsi çox böyük miqyas alaraq, demək olar ki, bütün dövlətləri əhatə etmişdi. Müharibə dövründə 10 milyonlarla insan həlak oldu, döyüş meydanlarında, əsirlikdə, konslagerlərdə milyonlarla hərbi xidmətçinin həyatı sona yetdi. Bundan başqa müharibə 25 milyona yaxın dinc əhalinin həyatına son qoyuldu. Onu da bildirək ki, tarixin ən qanlı müharibəsi kimi tanınan İkinci Dünya müharibəsi qurbanlarının dəqiq sayı məlum deyil. Altı il davam edən və dünyanın 70-ə yaxın dövlətinin cəlb olunduğu bu müharibədə həlak olanların sayını 35 milyon göstərən də var, 68 milyon göstərən də. Amma mənbələrin əksəriyyəti bu müharibəyə 100 milyondan çox adamın birbaşa əldə silah cəlb olunduğunu, ölənlərin sayının isə 50 milyondan çox olduğunu yazır. Öldürülən adamlardan 15 milyonu əsgər, qalanı isə dinc əhali olub. Bu müharibə dünya siyasətinin dönüş nöqtəsi kimi xarakterizə olunur. İkinci Dünya müharibəsi kifayət qədər sərt başladı. Keçmiş SSRİ də bu müharibənin qaynar nöqtəsinə çevrildi.

1941-ci ilin iyunun 22-də faşist Almaniyası keçmiş Sovet İttifaqına hücum etdi. Bu müharibə imperiyaya daxil olan xalqlar tərəfindən xilaskar, ədalətli və müharibəyə çevrildi. Bu baxımdan, müharibə ümumxalq xarakteri daşıyırdı. Sovet İttifaqının bütün xalqları, o cümlədən, Azərbaycan xalqı müharibəyə qoşuldu. Həmin illərdə sovet imperiyasının tərkibinə daxil olan ölkələr son dərəcə çətin və məsul vəzifəsini yerinə yetirməli idi. Tarixdən məlum olan sənədlərə əsasən, faşist Almaniyasının Şərq siyasətində Qafqaza, o cümlədən, Azərbaycana xüsusi diqqət yetirilirdi. Bakı 1941-ci il sentyabrın axırına qədər işğal olunmalı idi. Alman faşizmi Bakını işğal edib, onun neftini öz şirkətlərinin sərəncamına verməli idi. Artıq bu plan üzərində böyük bir siyasi xətt yeridilirdi. Bakının hərbi məntəqəyə çevrilməsi ilə bağlı qərar da çıxarılmışdı.



### SAVAŞDA AZƏRBAYCANIN MÜSƏLLƏH ƏSGƏRLƏRİ

Təbii ki, XX əsrin ən dəhşətli səhifəsi hesab edilən İkinci Dünya müharibəsi Azərbaycan üçün çoxlu qurbanlarla sona yetmiş olsa da, bu müharibə dünyada misli görünməmiş qələbə ilə başa çatdı. 9 may - alman faşizmi üzərində Qələbə tarixidir. Həmin tarixdən düz 79 il ötür. Elə də qısa zaman deyil. Gör neçə bahar, qış ötüb. Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş azərbaycanlıların qəhrəmanlığı, şücaəti yaddaşlarda həmişə yaşayır. Qürurlanırıq ki, minlərlə vətən oğlunun İkinci Dünya müharibəsindəki qəhrəmanlığı müxtəlif xalqlar tərəfindən öyrənilir və xalqımıza məxsus ərənlik bir nümunəyə çevrilib. Müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşının Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi əlbəttə ki, bu savaşda Azərbaycan oğullarının rolunun böyük və əvəzsiz olduğunu göstərməklə yanaşı, igidliyindən də söz açır. Əlbəttə ki, müharibədə Azərbaycanın müsəlləh əsgərləri silaha sarılaraq alman faşistləri ilə üz-üzə dayandılar. Gərgin bir döyüş yolu keçdilər. Müharibə başlananda keçən qısa müddət ərzində, Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi, respublikanın 700 mindən çox oğlan və qızları cəbhəyə yola salındı. Onların təxminən yarısı döyüş meydanlarında həyatlarını itirdilər. 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edildi.

Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və digər şəhərlərin düşməndən azad edilməsində rəşadət göstərmiş oldular. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak etdilər. Xatırladaq ki, Berlinə ilk dəfə daxil olan hərbi hissələr içərisində 416-cı diviziyası da var idi. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrinin birində qeyd edib ki, 416-cı diviziya Berlinin götürülməsində də fərqlənib: "Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçüləri tutublar. Azərbaycanlı leytenant Məcidovun rəhbərlik etdiyi bir qrup döyüşçü isə Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancıb". Berlin uğrunda döyüşlərdə kapitan X.Gülməmmədovun batalyonu xüsusilə fərqlənib. Kayzerin sarayı üstündə Qələbə bayrağını ilk dəfə mayın 1-də sancanlardan biri leytenant Vahab Osmanov düşmən gülləsindən həlak olub. Brandenburq qapıları üstünə mayın 2-də qələbə bayrağını taxanlardan biri isə leytenant A.Məcidov və onun döyüşçüləri olublar.

### İKİNCİ DÜNYA MÜHARİBƏSİ VƏ BAKI NEFTİ

Bu tarixi Qələbədə Azərbaycanın, onun övladlarının rolu və neftinin əhəmiyyəti böyükdür. İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının istifadə etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşürdü. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçuşlar həyata keçirən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynadı. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərərək, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəallıq göstərdi. 1941-1945-ci illərin alovunu Azərbaycanın hər bir vətəndaşı yaşıyıb. Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Fəhlə və qulluqçular üçün iş günü 11-12 saata qaldırılmışdı. Məzuniyyətlər ləğv olunmuşdu. Ərzaq, gündəlik tələbat və çox işlənən sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq edilmişdi. Orduya səfərbər edilmiş işçilərin yerinə qadınlar və yeniyetmələr cəlb olunmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdılar. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də, müharibənin əvvəlindən axırınadək, bu meydanda fəal iştirak etdi. Bakıda - indiki Səttərxan adına zavodda müharibə üçün silah-susat istehsal olunurdu. "Katyuşa" raketi, "Şpakin pulemyotu", "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Bütün qüvvələr faşizm üzərində qələbəyə yönəldilmişdi.

Hitler Qafqaza hücuma başlayanda feldmarşal Manşteynə dediyi fikri xatırlatmaq yerinə düşər: "Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək müharibəni uduzacağıq". Bu məqsədlə Hitler Xəzər boyunca, Qroznı-Maxaçqala-Bakı istiqamətində hücuma keçmək və hərbi təyyarələrdən desant buraxmaq haqqında tank və aviasiya komandanlarına əmr vermişdi. Lakin 1942-ci ilin avqust ayının sonunda faşist ordu hissələri Şimali Qafqazda Terek çayının sahillərinə çıxsalar da, güclü müqavimətlə üzləşib irəliyə doğru hərəkət edə bilmədilər. Buna baxmayaraq, 1942-ci il sentyabr ayının 16-da SSRİ-nin Dövlət Müdafiə Komitəsi Bakının müdafiəsi üçün xüsusi qərar qəbul etdi və bu qərara əsasən 1942-ci ilin sentyabr ayının 24-də Azərbaycanda hərbi vəziyyət elan edildi.

### "İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ XİDMƏTİ, FƏALİYYƏTİ, ROLU ÇOX BÖYÜK OLMUŞDUR"

Azərbaycanda hazırda İkinci Dünya müharibəsi veteranları yaşayır. 9 may-faşizm üzərində qələbədən 79 il ötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var, müharibənin canlı şahidləridirlər. Həmin illərdə baş verən hadisələrin, müharibənin şahidi və iştirakçısı olan insanların qələbə istəyi ilə Berlinə qədər getmələri, fədakarlıqları və ərənlikləri yaddaşlardan, tariximizdən heç vaxt silinməyəcək. Müharibədə od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına Azərbaycanda böyük diqqət və qayğı göstərilir. Veteranlara ikinci həyatı isə öz diqqət və qayğısı ilə Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", - deyən Dahi Öndər Heydər Əliyev müharibə veteranlarını "Xalqımızın Qızıl Fondu" adlandırırdı.

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. "Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik", - deyən dövlət başçısı Azərbaycanda veteranların diqqət və qayğı ilə əhatə olunduğunu bildirib.

### HEÇ KİM UNUDULMUR

Bu tarixi qələbədə Azərbaycanın, onun övladlarinin rolu əvəzsiz olmuşdur. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı xüsusi qayğının növbəti təzahürüdür. Prezident İlham Əliyevin Sərəncamına əsasən, İkinci Dünya müharibəsində Qələbənin 79-cu ildönümü ilə əlaqədar birdəfəlik yardım ödənilir. Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 79-cu ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 2000 manat birdəfəlik maddi yardım ödənilir. Həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1000 manat məbləğində birdəfəlik maddi yardım verilir.

Sərəncamın ümumilikdə 3 minə yaxın şəxsə şamil olunur. Onlardan 30-u İkinci Dünya müharibəsi iştirakçılarıdır. Birdəfəlik maddi yardımların verilməsi üçün Sərəncamla Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılıb.

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İkinci Dünya müharibəsində odalov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına da Azərbaycanda böyük diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin imzaladığı məlum Sərəncam Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti təzahürüdür.

***Zümrüd BAYRAMOVA***

# HEYDƏR ƏLİYEV və Naxçıvan

Prezident cənab İlham Əliyev: "Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə Ulu Öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar".

Azərbaycan dövlətinin banisi, görkəmli siyasi və dövlət xadimi, Azərbaycan xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onun müstəqilliyinə qovuşmasına töhfə vermiş qüdrətli şəxsiyyət Ümummilli Lider Heydər Əliyevin həyatı kitablara sığmayacaq qədər dərin və mənalıdır. Bu xalqın həyatında, müstəqilliyinə qovuşmasında, inkişaf və tərəqqisində, milli dəyərlərinin formalaşmasında, tarixinin, mədəniyyətinin qorunub yaşadılmasında və günlərlə saya biləcəyimiz digər məsələlərdə Ulu Öndərin rolu əvəzsizdir.

Onun həyat və fəaliyyətinin Azərbaycan tarixinin ayrıca bir mərhələsini təşkil edən Naxçıvan dövrü isə daha diqqətçəkəndir. Çünki bu mərhələ ümumilikdə Azərbaycan xalqının taleyinin dəyişməsinə xidmət edən bir mərhələ olmuşdur.





## 90-cı illərin Naxçıvanı

1990-cı ilin yanvar ayında Azərbaycanın ayrı-ayrı rayonlarının, eləcə də Naxçıvanın sərhədlərində ermənilər tərəfindən münaqişələr törədilirdi. Yanvar ayının 18-də keçmiş SSRİ-nin Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki kəndi işğal olunmuşdu. Ermənilərin Sədərək istiqamətində mütəmadi hücumları başlamışdı və vəziyyət gündən-günə gərginləşirdi. Yanvarın 20-də Bakıda törədilən faciə ilə Naxçıvanın sərhədlərində başlanan münaqişələrin üst-üstə düşməsi isə ermənilərin havadarlarının əvvəlcədən hazırladığı böyük plan üzrə cərəyan edirdi. Belə ki, burada məqsəd diqqətin Bakı hadisələrinə yönəlməsi fonunda Naxçıvanın əhalisi arasında ümidsizlik yaradaraq bölgənin boşaldılması və erməni işğalı üçün şəraitin yaradılması idi. Digər tərəfdən isə Naxçıvanı ölkənin paytaxtı ilə birləşdirən yollarda da ermənilər tərəfindən münaqişə törədilir, Bakı-Naxçıvan qatarları dayandırılır, günlərlə işləmir, maşinistlətə qarşı vəhşiliklər edilirdi. Naxçıvan blokada vəziyyətinə salınırdı. Bütün bu əməllərin arxasında kimin olduğu, kimin planı və gücü ilə həyata keçirilməsi 20 Yanvar hadisələrindən sonra Naxçıvana qayıdan və burada yaşayan Ulu Öndərə gün kimi aydın idi. Elə buna görə də Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsi Azərbaycanı çox yaxşı bələd olduğu ittifaqın caynağından qoparmaq üçün yolun başlanğıcı idi. Naxçıvanda yaşadığı halda Azərbaycanı idarə etmək qabiliyyətinin, xalqın müstəqillik arzusunu reallaşdırmaq bacarığının, tarixi sənədlərin qəbulu və həyata keçirilməsi əzminin nümayişi idi. Bu seçim eyni zamanda Azərbaycanın qədim diyarı Naxçıvanın erməni təcavüzündən, onun düşmən əlinə keçmək təhlükəsindən xilası idi.




Təbii ki, bütün bu hadisələrin fonunda Ulu Öndərin yaşadığı, rəhbərlik etdiyi Naxçıvanda SSRİ-nin saxlanılmasına dair referendum keçirilə bilməzdi. Beləliklə də referendum Naxçıvanda boykot edildi. Bu barədə Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktına münasibətlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli bəyanatında deyilir: "Naxçıvan Muxtar Respublikasının demokratik qüvvələri son üç ildə Azərbaycan Respublikasının milli azadlığı, müstəqilliyi uğrunda fəal mübarizə aparıb, bu yolda qurbanlar verib və 18 oktyabr 1991-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktını bütün Azərbaycan demokratik qüvvələrinin böyük qələbəsi kimi qiymətləndirir. 17 mart 1991-ci il tarixdə Sovet Sosialist Respublikaları İttifaqının saxlanılması haqqında referendumda Naxçıvan Muxtar Respublikası əhalisinin iştirak etməməsi məhz muxtar respublika demokratik qüvvələrinin Azərbaycanın milli azadlıq, istiqlaliyyəti uğrunda apardığı mübarizə ilə əlaqədardır.

Razılıq hissi ilə bildiririk ki, nəhayət, Azərbaycan Respublikası ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır...

Bundan sonra Azərbaycan Respublikasının Sovet İttifaqının hakimiyyət orqanlarında iştirak etməsi yolverilməzdir. Azərbaycanın dövlət müstəqilliyini tam reallığa çevirmək üçün ümumi xalq səsverməsinin keçirilməsi vacibdir və məqsədəmüvafiq olardı. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər".

Dövlətimizin başçısı bu məsələyə münasibət bildirərkən tarixi fakta əsaslanaraq demişdir: "... Heydər Əliyev qoymadı ki, Naxçıvanda bu referendum keçirilsin. İndi baxın, müstəqilliyə aparan addımlar hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib?.. Mən istərdim ki, hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi".

## Müstəqilliyimizin taleyini dəyişən Qayıdış

Böyük çətinliklə əldə olunan müstəqil dövlətimizin təməli Ulu Öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, müstəqilliyimiz əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.







Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdiklərimiz canlandıqca düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonrakı dövrə nəzər salarkən ona uzanan əlləri, gözü götürməyənlərin təxribatlarını görəndə isə belə bir qənaətə gəlirsən ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi





yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Ümummilli Lider Heydər Əliyev o zaman Naxçıvana qayıtmasaydı və Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyətimizin taleyinə bənzəyəcəkdi.

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi.

Bu gün müstəqil Azərbaycan etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçımızın rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizidir. O mənada ki, xalq çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır.

## Milli ordu quruculuğunun əsası Naxçıvanda qoyulub

Zəfər qazanmış ölkə olaraq bu gündən dünənə nəzər salsaq görərik ki, 90-cı illərin əvvəllərində ordumuz yox dərəcəsində idi. Yeni ordu quruculuğu işini həmin dövrdə gündəmə gətirən də yox idi. Çünki ovaxtkı dövlət rəhbərlərinin başı öz vəzifə kürsülərini qoruyub saxlamağa qarışmışdı. Onlar ordu barədə nə üçün düşünməli idilər ki? Öz əlləri ilə düşmənə satdıqları torpaqları qorumaq üçünmü? İki hal bir-biri ilə ziddiyyət təşkil etdiyinə görə bu barədə danışmağa da əsla dəymәz.

Lakin həmin dövrdə Naxçıvanda yaşayan və fəaliyyət göstərən dahi şəxsiyyət Heydər Əliyev üçrəngli dövlət bayrağımızın qaldırılması, dövlət rəmzlərimizin tanınması kimi, artıq orada ordu quruculuğuna da başlamışdı. Azərbaycan Milli Ordusunun təməli Ulu Öndər tərəfindən qoyulmuşdu. Sonrakı illərdə isə bu, daha da şaxələndirildi və bu sahədə həyata keçirilən bir-birindən əhəmiyyətli işlər bugünkü güclü ordumuzun yaradılması ilə nəticələndi.

Bu barədə dövlətimizin başçısı deyir: Güclü ordu quruculuğu. Bu da Ulu Öndərin bizə olan vəsiyyəti idi. Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə də təqdim edilirdi, bəzi işləri biz daha çox konfidensial, yəni, məxfi şəraitdə aparırdıq, bu da başadüşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu, bu gün bir çoxları üçün nümunədir.

## Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi

Bəli, bütün həyatını, sağlamlığını xalqının xoşbəxtliyinə, müstəqilliyimizin əbədiliyinə, torpaqlarımızın azadlığına həsr edən böyük Heydər Əliyevin həyatı da, fəaliyyəti də bir fədakarlıq nümunəsi idi. Yaxşı yadımdadır, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində torpaqlarımızı satanlar isti otaqlarında boş-boş işlərlə məşğul olduqları zaman Ulu Öndərimiz qazsız, işıqsız Naxçıvanda buz kimi evdə yaşayır, Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyətə malik olan sənədlərə qaranlıq, soyuq iş otağında çıraq işığında imza atırdı. Saatlarla o soyuq otaqda bu xalqın qurtuluşu üçün yollar axtarıb tapırdı.

Minilliklər boyu bir xalqın taleyində belə şəxsiyyətlər çox az halda olur. Biz çox xoşbəxt xalqıq ki, Ulu Öndər bizim tale payımız, alın yazımız olub. Biz bugünkü müasir, müstəqil Azərbaycan üçün Ulu Öndərimizə, onun ölməz ideyalarına borcluyuq. Dövlətimizin başçısının söylədiyi kimi: Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi. O, hətta özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da və yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət etməyə çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur - onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır.

***Mətanət Məmmədova***

# “Azərbaycan ərazilərini azad etsə də, mina terroru ilə mübarizə davam edir”




**“Mina terroru Azərbaycanın ikinci Qarabağ savaşında, Vətən müharibəsində qələbə qazanandan, işğalçı qüvvələri darmadağın edib ərazi bütövlüyünü bərpa edəndən sonra rastlaşdığı terror növüdür”. Bu sözləri SİA-ya açıqlamasında polkovnik, hərbi ekspert Şair Ramaldanov deyib.**



O bildirib ki, bu terror əməliyyatı da Azərbaycan ərazisinin minalanması ilə bağlıdır: ”Bəzi məlumatlara görə Azərbaycan ərazisində bir milyona qədər mina yerləşdirilib. Hal-hazırda statistik məlumatlara əsasən ərazilərin 20%-i tam şəkildə təmizlənməyib. Bu da onu göstərir ki, mina terroru ilə mübarizə uzun çəkən prosesdir. Mina yerləşdirmək az vaxt tələb




edir və nisbətən ucuz fəaliyyətdir. Minanın istehsal və yerləşdirilməsinə 10 dollardan 100 dollara kimi sərf oluna bilirsə, onu axtarıb zərərsizləşdirmək üçün 300 dollardan 1000 dollara kimi qiymət sərf olunur. Ona görə mina sahələrinin təmizlənməsi və Azərbaycan əhalisinin işğal olunmuş ərazilərə qaytarılması üçün təhlükəsizliyin təmin edilməsi çox ağır, bahalı prosesdir.

Minaların qadağası ilə bağlı qəbul edilən beynəlxalq konvensiyanın əsasları nəticəsində hər iki tərəf öz mina sahələrini təmizləyib bir-birinə təhvil verməlidir. Digər tərəfdən xəritələr təqdim olunmalıdır. Ancaq Ermənistan bu konvensiyanın müddəalarını yerinə yetirmir. Verilən xəritələr 20-25% də olsun təhlükəsizlik cəhətdən tələblərə cavab vermir”.

”Qazaxın 4 kəndi azad ediləndə ermənilər orada öz mövqelərinin ətrafında olan mina sahələrini təmizləyib Azərbaycana təhvil verdilər. Ancaq buna da 100% əmin olmaq olmaz. Ola bilsin ki, minalar başqa yerlərdə də var. Azərbaycan ərazisi işğaldan azad ediləndən sonra yeni mina sahələri məhz antiterror tədbirlərindən sonra da əlavə olundu. Çünki 400 kilometri əhatə edən ərazi minalanıb. Antiterror tədbirlərindən sonra o ərazilər də minalanmış qalıb. Onların da xəritələri və başqa şeylər Azərbaycana təqdim olunmayıb. Ona görə Azərbaycan ərazilərini azad etsə də, mina terroru ilə mübarizə davam edir. Bununla bağlı Azərbaycan hər işi görür. Ən yeni avadanlıqlar, uzaqdan idarə olunan minaya qarşı texnika və sair Azərbaycana gətirilir. ANAMA çox aktiv fəaliyyət göstərir. Azərbaycanın güc strukturlarının mühəndis istehkam bölmələri burada aktiv iştirak edirlər. Ancaq bu qədər mina olan sahədə bu proses uzun çəkir. Hələ ki, yol şəbəkələr, enerji logistika və infrastruktur layihələrin həyata keçirilməsi istiqamətində işlər aparılır. Sonra isə bu ərazi getdikcə genişlənəcək. Düzdür, beynəlxalq qurumlar Azərbaycana bu məsələdə yardımda həmişə olduğu kimi ikili standartlarla yanaşır. Çünki konvensiyanın müddəalarına əsasən donor ölkələr minalanmış sahələrin təmizlənməsində iştirak etməlidirlər, vəsait ayrılmalıdır. Azərbaycan Respublikasının Prezidenti Almaniyada olanda bununla bağlı müəyyən söhbətlər getdi. Ancaq orada ayrılan məbləğ də, demək olar ki, çox az məbləğdir.

Azərbaycannın mina təmizləmə prosesində qardaş ölkə Türkiyənin bir qrupu iştirak edir. Rusiya Federasiyasının fövqəladə hallar Nazirliyinə aid bir taqım orada fəaliyyət göstərir. Ona görə də, bununla bağlı Azərbaycan hökuməti yeni imkanlardan bəhrələnmək üçün addımlar atır, müraciətlər olunur. Hər halda bu istiqamətdə iş gedir. Bu gün Azərbaycanın mütəxəssisləri, mina təmizləmə ilə məşğul olanlar ən çox mina təmizləyənlərin arasında birincilər sırasındadır. Hal-hazırda Azərbaycanın həm təhlükəsizliyi təminat baxımdan, orada infrastruktur layihələrinin həyata keçirilməsini sürətlə apara bilmirik. Çünki bütün ərazilər minalardan təmizlənməyib. Ancaq təmizlənəndən sonra orada yeni evlərin tikilməsi, infrastruktur obyektlərin yaradılması ilə bağlı mühüm işlər aparılacaq. Düşünürəm ki, bundan sonra da Azərbaycan bu işlə məşğul olacaq. Lazım olan dəstək və diqqət Prezident İlham Əliyevin rəhbərliyi altında nəticələr verəcək, Azərbaycan ərazisinin minadan təmizlənməsində işlər genişləndiriləcək, yeni yaşayış evləri, infrastruktur layihələri yaradılması üçün imkan yaradılacaqdır” - deyə o, əlavə edib.




***Söylü Ağazadə***



MƏTANƏT

# Döşəkağını kim yumalıdır: valideyn, yoxsa?..

**Söhbət təbii ki, bütün uşaq bağçalarından getmir. Bunu bəri başdan deyək ki, işini qura, fəaliyyətinin nədən ibarət olduğunu tənzimləyə bilən, hətta nümunəvi bağçaların da olduğunu hər kəs bilsin.**

Mən elə bilirdim ki, valideynlərin döşəkağını özlərinin yuması bir neçə illər əvvəldə qalıb. Çünki özün də illərlə bağçalardan qoltuğuma verilən döşəkağıları yumaq məcburiyyətində qalmışam. Elə ki, iş həftəsinin sonuncu günü oldu, bağça qapısında bir əli uşağın əlində, digər əlində isə uşağın yatağının döşəkağı olan dayə valideyni gözləyir, həm uşağı, həm də yuyulmalı olan camaşırları təhvil verirdi. Yəni qayda belə idi, bağça rəhbərliyi çox az halda fikirləşirdi ki, bu, kimin uşağıdır və buna uyğun da hərəkət edirdi.

Biz də ana vəzifəmiz kimi döşəkağını yuyur, ütüləyir, növbəti həftənin ilk iş günündə uşaqlarla bərabər, onları da bağçaya təhvil verirdik. Hələ onu da deyim ki, elə olurdu ki, uşaq arada yatağını çirklədəndə həftə ərzində bir və ya bir neçə dəfə də döşəkağı valideynin qoltuğuna verilirdi.

Hə, bu, illər əvvəl belə idi. Və mən də artıq belə halların aradan qalxdığına özünü o qədər inandırmışdım ki... Lakin təəssüf ki, düşündüyüm kimi deyilmiş. Belə ki, hazırda hələ regionları demirəm, çünki bu barədə məlumatın yoxdur, Bakıda-paytaxt şəhərimizdə belə bağçalar var. Bu günlərdə tanış valideynlərdən bir neçəsi ilə təsadüfi söhbət nəticəsində məlum oldu ki, onların da uşaqlarının döşəkağı bağçalar tərəfindən valideynlərin qoltuğuna verilir və yuyulmağa göndərilir.

Əvvəlcə, həqiqətən, inanmağım gəlmədi. Çünki XXI əsrdə belə bir halın olmasına inanmaq bir qədər çətindir. Lakin fakt budur ki, şəhərimizdə uşaq bağçaları var ki, orada döşək ağları yenə də həftəsonu, həftəiçi valideynlərə yuyulmağa verilir.

Çox maraqlıdır, deyilmi? Bu gün belə halların hələ də qalması həm gülməli, həm ağlamalıdır. Ona görə ki, baxmayaraq XXI əsrdir, ölkəmiz inkişaf edib və etməkdədir, hələ də bəzi bağçaların işini günümüzə müvafiq qura bilməməsi təəccüb doğurur. Bir neçə il ərsində Təhsil Nazirliyindən İcra Hakimiyyətlərinə, İcra Hakimiyyətlərindən Təhsil Nazirliyinə alınıb verilən uşaq bağçalarında hələ də belə acınacaqlı hal qalırsa, belə çıxır ki, bağçalara nəzarət üçün yeni bir qurum tapılmalıdır.

Hansısa bir uşaq müəssisəsində camaşırxana yoxdursa və yaxud varsa, işlədən yoxdursa, kimsə bu vəzifəni kağız üzərində icra edib əmək haqqı alırsa, camaşırları isə valideyn yuyursa, burada nədən danışmaq olar, onu anlamağa çalışıram. Bəs görəsən həqiqətənmi belə bağçalarda camaşırxana yoxdur? Varsa, işçi yoxdur? İşçi varsa, elektrik enerjisi, yuyucu toz əldə edə bilmirlər? Bunlar da varsa, nə üçün vəziyyət belədir?..

Bu gün dövlətimiz tərəfindən bütün sahələrə yetərli qədər diqqət və qayğı göstərildiyi, xüsusilə uşaq, yeniyetmə və gənclərin hərtərəfli inkişafı, bəslənməsi, sağlam böyüməsi, təhsili, asudə vaxtı və sair üçün milyonlarla manat məbləğində vəsait ayrılması fonunda bəs görəsən aid qurumlar bu qayğıya hansı fəaliyyətləri ilə cavab verirlər? Bu barədə düşünən aid qurum varmı? Düşünən varmı ki, XXI əsrdə qapalı müəssisədən valideynin qoltuğuna çirkli camaşırın yüklənməsi nə dərəcədə doğrudur?..

Ümidvarıq ki, suallarımız cavablandırılar. Belə olan təqdirdə hər kəs, xüsusilə də çalışan, iki və ya bir istirahət günündə işi-işinə qarışan qadınlar hər həftə sonu döşəkağı yumaq məcburiyyətində qalmasının hansı səbəbdən olduğunu anlayar. Bəlkə bu, elə belə olmalıdır, bizim xəbərimiz yoxdur...

# Müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında

Ulu Öndər Heydər Əliyevin fəaliyyəti dünya siyasət sənətinin xəzinəsinə daxil olmuş, onun adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilmişdir. Bu gün bizlər əminliklə deyə bilərik ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin möhtəşəm siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlı olmuşdur. Ulu Öndərin dövlətimiz, xalqımız qarşısındakı xidmətləri hər an, hər gün gözümüz önündədir. Ulu Öndərin əbədiləşən ömür yolunu düşünəndə belə qənaətə gəlirik ki, ömrünü xalqına həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərlər heç zaman unudula bilməz. Məhz öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev qüdrətli şəxsiyyət kimi xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.

Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir. Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olub. On illərlə bütün şüurlu həyatını Azərbaycanın var olmasına, inkişafına və çiçəklənməsinə həsr etmiş dahi dövlət xadiminin yalnız son dövr fəaliyyətindən, yəni 1993-cü ildən sonrakı xidmətlərindən daha çox bəhs edilir. Lakin qeyd etməliyik ki, Sovet dönəmində rəhbərlik etdiyi dövr ərzində Heydər Əliyev Azərbaycana tamamilə yeni nəzərlə baxmış və yeni bir Azərbaycan yaratmışdır. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı. 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının qəbul edilməsi və orada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi Ümummilli Lider Heydər Əliyevin bu istiqamətdə ən böyük xidmətlərindən biri olmuşdur. Totalitar sovet rejiminin hökm sürdüyü o dövrdə respublikanın ali qanununda xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasların müəyyən edilməsi olduqca cəsarətli addım kimi dəyərləndirilir. Sovet milli siyasətinin tələbləri ilə tam bir ziddiyyət təşkil edən bu çətin vəzifənin öhdəsindən məhz Ulu Öndər Heydər Əliyev gələ bilmişdir.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Sovet İttifaqının liderlərindən biri olduğu dövrdə də müdrik siyasətçi respublikamızın inkişafı üçün öz qüvvə və bacarağını əsirgəmirdi. Məhz Ulu Öndərin Moskvada çalışması Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan qüvvələrin öz mənfur niyyətlərini gerçəkləşdirməsi yolunda ən böyük manea olmuşdu. Lakin sonralar baş verən məlum hadisələr, Mixail Qorbaçovun siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə qarşı həsəd və qısqanclıq hisslərinin baş qaldırması, Azərbaycan əleyhinə çirkin niyyətlərin həyata keçirilməsi Ulu Öndərin vəzifədən uzaqlaşdırılması ilə nəticələndi. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verdi. Məhz bundan sonra mərd, məğrur, əyilməz Heydər Əliyevin, eyni zamanda Azərbaycan xalqının ən ağır və sarsıntılı günləri başladı. Ulu Öndərin istefa edərək vəzifədən getməsinə düşmənlərimiz sevinsə də, Azərbaycan xalqının və eləcə də bütün türk dünyasının taleyini düşünənlər kədər içində idi. Sumqayıt hadisələri, soydaşlarımızın öz doğma torpaqları olan indiki Ermənistan ərazisindən deportasiyası, Dağlıq Qarabağda baş verən separatçılıq meylləri və nəhayət 1990-ci ilin 20 Yanvar qırğını bu siyasətin bariz nümunəsi idi. Heç bir təqib və təzyiqdən çəkinməyən, hər zaman xalqının yanında olan Ulu öndər haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaq məqsədilə faciənin ertəsi günü Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək bəyanatla çıxış etmiş və 20 Yanvar cinayətinin mahiyyətini, səbəblərini və bu faciəni törədən qüvvələrin niyyətlərini açıq şəkildə göstərmişdi. Məhz Moskvadakı bəyanatdan sonra Ulu Öndər artıq burada qala bilməzdi. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ilin 21 noyabrında özünün ən böyük şah əsəri olan Yeni Azərbaycan Partiyasını yaratmış və Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçilmişdir.



**Samir Baxşiyev**
**YAP Siyəzən rayon təşkilatının sədri**

SSRİ-nin dağılmasından sonra 1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyimizi bərpa etsək də xalqımız üçün müstəqilliyin ilk illəri olduqca ağır və keşməkeşli keçmişdir. Şəhidlərimizin qanı hesabına qazandığımız müstəqilliyimiz itirilmək təhlükəsi qarşısında qalmışdı. Ölkənin ağır günlərini yaşadığı bir zamanda xalqımız 1993-cü ilin iyun ayında mövcud hakimiyyətin dəyişməsini təkidlə tələb etmiş və həmin vaxtdan taleyini yenə Ulu Öndər Heydər Əliyevə etibar etmişdir. Xalqın təkidli tələbindən sonra 1993-cü ilin 9 iyununda Heydər Əliyev Bakıya gəlmiş və dövləti mövcud bəladan xilas etmək yolunda bir sıra görüşlər və məsləhətləşmələr aparmışdır. Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşılamış və iyunun 15-də Heydər Əliyev Ali Sovetin sədri seçilmişdir ki, həmin gün isə Milli Qurtuluş Günü kimi müstəqil Azərbaycanın tarixinə əbədi olaraq yazılmışdır.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı. Ulu Öndər qısa vaxt ərzində öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Məhz intibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Sevindirici haldır ki, Ümummilli Lider Heydər Əliyevin bu uzaqgörən və müdrik siyasəti onun layiqli davamçısı Möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əminliklə deyə bilərik ki, bu gün Azərbaycanın bütün sahələrdə əldə etdiyi misilsiz nailiyyətlər Ümummilli Lider Heydər Əliyev siyasətinin təntənəsi, Ulu Öndərin layiqli davamçısı Möhtərəm cənab Prezident İlham Əliyevin xalqına olan sonsuz sevgisinin təcəssümüdür. Aparılmış müdrik siyasətin nəticəsində ölkəmiz bütün sahələrdə inkişaf və tərəqqi yolu keçərək regionun ən qüdrətli dövlətinə çevrilmişdir. Xüsusilə ölkə başçısının fəaliyyətinin zirvəsində işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsi və milli suverenliyimizin tam bərpası ilə nəticələn antiterror əməliyyatları dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Böyük qürur hissi ilə qeyd edə bilərik ki, hazırda Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli ordumuzun qələbəsi nəticəsində üçrəngli bayrağımız işğaldan azad edilən bütün ərazilərimizdə dalğalanır.

Hazırda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu gün hər kəs müharibədən sonra Qarabağda və Şərqi Zəngəzurda başlayan quruculuq işlərini böyük qürur və ruh yüksəkliyi ilə izləyir.

Ötən müddət ərzində Azərbaycan xalqı əldə edilmiş uğurların əsasını qoyan Ümummilli Lider Heydər Əliyevi ehtiramla yad etmiş və ona sonsuz təşəkkürünü ifadə etmişdir. Hazırda Ulu Öndərin irsinin təbliği ölkə siyasətində əsas prioritetlərdən biridir. Bu istiqamətdə 2004-cü ilin 10 may tarixində əsası qoyulmuş Heydər Əliyev Fondunun xidmətləri əvəzedilməzdir. Heydər Əliyev Fondu yarandığı gündən qarşısına xalqımızın milli mənəvi dəyərlərini qorumaq, Azərbaycan mədəniyyətinin geniş təbliğ etmək, həmçinin əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri reallaşdırmaq kimi məqsədlər qoymuşdur. Bundan əlavə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərmək Fondun fəaliyyətinin prioritetlərini təşkil etməkdədir.

2004-cü ilin may ayının 10-da Ulu Öndər Heydər Əliyevin doğum günündə fondun təntənəli açılış mərasimində çıxış edən Möhtərəm cənab Prezident İlham Əliyev qeyd etmişdir ki, "Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil, tədqiq və təbliğ edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur. Fond ictimai təşkilatdır. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında Fondun rolu böyük olacaqdır". Məhz cənab Prezidentin də vurğuladığı kimi aradan ötən müddət ərzində öz fəaliyyəti ilə Azərbaycanın ictimai həyatında oynadığı böyük rol, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına görə Heydər Əliyev Fondu ölkəmizdə analoqu olmayan quruma çevrildi.

20 il ərzində Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə saysız-hesabsız uğurlara nail olmuş, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrdə ciddi islahatların aparılmasına öz töhfəsini vermişdir. Heydər Əliyev Fonunun fəaliyyətə başlaması Azərbaycanda böyük ənənələri və tarixi olan xeyriyyəçilik məktəbinin yenidən dirçəlməsi və yaşadılması ilə müşahidə olundu. Mehriban xanımın rəhbərlik etdiyi Fond cəmiyyəti narahat edən, Azərbaycan vətəndaşlarının həyatı, sağlamlığı, təhsili ilə bağlı olan bütün sahələrə diqqət yönəltmiş və bu istiqamətdə mühüm işlər həyata keçirilmişdir. Fond həmçinin irimiqyaslı, möhtəşəm layihələri ilə Azərbaycanın dünya miqyasında multikultural, tolerant ölkəyə çevrilməsinə də güclü dəstək olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Fondun fəliyyətini yüksək qiymətləndirərək qeyd edib: "Mehriban Əliyevanın rəhbərliyi ilə Fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir".

Heydər Əliyev Fondu öz fəaliyyəti çərçivəsində 2020-ci ilin sentyabrında başlanan və tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində də fəal çalışaraq Qələbə üçün öz töhfəsini verdi. Həm daxili, həm beynəlxalq arenada Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq, ölkəmizə, xalqımıza haqq işində dəstək qazanmaq üçün mümkün olan hər şeyi etdi. Fondun əməkdaşları erməni işğalından azad olunmuş bölgələrdə səfərdə olaraq burada həyata keçirilən quruculuq işlərinə mühüm töhfələr verməkdədirlər. Erməni vandalizmi nəticəsində dağıdılmış milli-mədəni abidələrimizin bərpasında Heydər Əliyev Fondu misilsiz xidmətlər göstərir. Fondun prezidenti kimi Mehriban xanım Əliyeva Möhtərəm cənab Prezidenlə birgə mütəmadi olaraq işğaldan azad edilmiş ərazilərə səfərlər edərək buradan çəkilişlər edib öz sosial şəbəkə səhifəsində yaymaqla əsgər və zabitlərimizə, könüllü döyüşçülərimizə və bu yerlərə qayıtmaq həsrəti ilə yaşayan insanlara dəstək nümayiş etdirir. Bütün bunların fonunda əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu fəaliyyətə başladığı gündən etibarən ölkəmizin ictimai-mədəni həyatında müstəsna rol oynamaqdadır. Təməl prinsiplərində Ulu Öndərin ideyalarına söykənən Heydər Əliyev Fondu ölkəmizin inkişafına mühüm töhfələrini verməklə xeyirxahlıq missiyasını, Azərbaycanın, onun mədəniyyətinin təbliğini uğurla həyata keçirir, Vətənə və xalqa ləyaqətlə xidmət edir. Təsadüfü deyildir ki, hazırda Heydər Əliyev Fondu milyonların ümid, pənah yerinə çevrilmiş, qarşıya qoyduğu vəzifələri lazımınca yerinə yetirmək iqtidarında olduğunu sübut etmişdir.

Böyük qürur hissi ilə ifadə etmək istəyirik ki, bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi Möhtərəm cənab Prezident İlham Əliyevin əlindədir. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Ulu Öndər Heydər Əliyev irsinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında daha böyük zirvələr fəth edəcəkdir.


## ELAN

***Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir***

**Bəstəkarlıq kafedrası**
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Simli alətlər kafedrası**
Baş müəllim

**Kamera ansamblı kafedrası**
Baş müəllim
Müəllim

**Musiqi tarixi kafedrası**
Dosent, Sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Musiqi nəzəriyyəsi**
Dosent
Baş müəllim

**İxtisas fortepiano kafedrası**
Baş müəllim
Baş müəllim

**Fortepiano, orqan və klavesin kafedrası**
Baş müəllim, sənətşünaslıq namizədi

**Metodika və xüsusi pedaqoji hazırlıq kafedrası**
Dosent, pedaqogika üzrə fəlsəfə doktoru
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru
Baş müəllim

**Xor dirijorluğu kafedrası**
Professor

*Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.*
*Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.*
*Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.*

# Xərçəng yaradan KERATİN: DƏHŞƏTLİ FƏSADLAR



**Son zamanlar bir çoxunun etdirdiyi keratin prosedurundan əvvəl keratinin nə olduğunu və saç quruluşuna nə üçün lazım olduğunu bilmək vacibdir.**

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Keratin bədənin saç, dırnaq və dəri strukturlarının sağlam və güclü qalmasını təmin edən zülallar qrupudur. Epitel hüceyrələrində struktur və qoruyucu rol oynayır. Keratinlərin bəziləri hüceyrə böyüməsi və zülal sintezindən məsuldur. Bu səbəbdən dırnaqlar və saçlar davamlı olaraq uzanır.



Bədəndə təbii olaraq tapıldığı zaman saç, dırnaq və dəri quruluşu güclənir. Son illərdə xüsusilə qadınlar saçlarını gücləndirmək və onlara qulluq etmək üçün keratinə üstünlük verirlər. Yəni, bu ən çox saç baxımında önə çıxır. Keratin proseduru buruq saçların düzəldilməsində üstünlük verilən keratin baxımı ilə edilir. Ancaq bu proses çox da zərərsiz deyil.

## Keratin baxımının zərərləri nələrdir?

Baxım olaraq adlandırılsa da, kimyəvi tətbiq olunan bir prosesdir. Keratin baxım zərərləri üç fərqli şəkildə araşdırıla bilər; saç, dırnaq və dəri kimi. Saç, dırnaq və dəri üzərində edilən bu prosedurlar təbii quruluşun pozulmasına səbəb olur. Xüsusən də ölkəmizdə keratin baxımı adı altında nəhəng bir sənaye yaranıb və heç birinin əsl keratin əlavələri vermədiyi ekspertlər tərəfindən bildirilir:

- Bu üsulla saçlar ilk dəfə tətbiq olunduqda canlı və parlaq görünür. Lakin ilk yuyulmadan sonra canlılığını itirir. Saçlara tətbiq olunan keratin müalicəsi qısa müddətdə təsirini itirir. Baxımın təsiri azaldıqca saçlar mat bir görünüşə çevrilir. Proses zamanı intensiv istilik tətbiqi saçın qurumasına və kövrəkləşməsinə səbəb olur.

- Keratin qulluğu istilik ilə aparılır. Bu proseslə saçın xarici qoruyucu təbəqəsində çatlar əmələ gəlir. Bu çatlar saçın qurumasına, qırılmasına və daha çox qıvrılmasına səbəb olur.

- Keratini uzun müddət saçda saxlamaq üçün müxtəlif xüsusi məhlullardan istifadə edilir. Saçlar bu məhlullarla zədələnə bilər. Bundan əlavə, keratin ciddi sağlamlıq problemlərinə səbəb olur.



- Bazarda bir çox saç keratini qulluq məhsulları var. Onların əksəriyyətində zəhərli maddələr mövcuddur. Bu aktiv zəhərli maddələr keratin baxımının ciddi zədələnməsinə səbəb olur. Keratin saça qulluq vasitələrinin əksəriyyətində formaldehid adlı çox zəhərli maddə olur. Bu zəhərli aktiv tərkib baxımın ilk mərhələsində istifadə olunur. Tənəffüs zamanı və ya dəri vasitəsilə udulduğunda insana çox ciddi zərər verir. Bu zəhərli maddə dəri və böyrəklərə də zərər verir. Tərkibində formaldehid olan məhsulların Yaponiya, İsveçrə, Amerika və Kanadada qulluq vasitələrində istifadəsi qadağandır.

- Tərkibində formaldehid olan keratin məhsullarının zədələnməsi bəzən qısa müddətdə özünü göstərir. Prosedur zamanı gözlərdə sulanma, yanma və qaşınma əmələ gəlir. Boğazda qıcıqlanma və hətta burun qanaması da ola bilər. Astma, bronxit, tənəffüs problemləri yaranır.



- Keratin baxım məhsullarının tərkibində də olan aktiv tərkib formaldehid çox ciddi kimyəvi maddədir və xərçəng növlərini dəvət edir. Bu zəhərli aktiv maddə siqaret tüstüsü, odun-kömür sobaları və işlənmiş qazlarda da olur.

- Keratin müalicəsinin zərərli təsirləri arasında ən çox diqqət çəkəni xərçəngdir. Xərçəng riski ilə yanaşı, uzun müddət aktiv tərkib hissəsi olan formaldehidə məruz qalan insanlarda mərkəzi sinir sistemi zədələnir. Şiddətli baş ağrıları, depressiya, yuxu problemləri, diqqətsizlik və unutqanlıq yarana bilər.

- Keratin baxımı dəridə allergik reaksiyaya, dəridə qaşınma, yanma və qızartıya səbəb ola bilər. Həmçinin, yanlış və tənzimlənməmiş qulluqdan sonra ciddi saç tökülmələri baş verə bilər.



- Bazarda aktiv tərkib hissəsi keratin olan bir çox məhsul var. Keratin saça qulluq maskası, saç serumu, keratin şampunu bu məhsullardan bəziləridir. Bunların heç biri saçınızın ehtiyac duyduğu keratin baxımını təmin etmir. Çünki bu maddələrin yaradılmasında çoxlu müxtəlif aktiv maddələrdən istifadə olunur.

- Saçınızın ehtiyac duyduğu keratin bu inqrediyentlərdə saf formada yoxdur. Bu səbəbdən sağlam keratin baxımı əldə edilə bilməz. Yanlış tətbiqlər və uyğun olmayan tərkibli məhsullar saça çox zərər verir.



- Parlaq və canlı saç görünüşünə nail olmaq üçün vərdiş halına gələn bu baxım, bir çox sağlamlıq problemləri riskini də özü ilə daşıyır. Əgər çox ciddi xroniki xəstəlikləriniz varsa, keratin baxımının əks təsirlərini daha tez hiss edəcəksiniz.

## Evdə keratin baxımı etmək zərərlidirmi?

Bazarda keratin botoksu və ya baxım adı altında bir çox məhsul satılır. Amma evdə qulluq üçün təbii məhsullar seçməlisiniz. Aldığınız qulluq məhsullarının tərkibində paraben, sulfat, duz, formaldehid, silikon və SLS olmamasına diqqət yetirməliyik.

Bundan əlavə, keratin tərkibindəki zərərli aktiv maddələrin çox olması səbəbindən ev şəraitində daha uzun müddətli yan təsirlərə səbəb olur. İstifadə etdiyiniz keratinin keyfiyyətinə və təhlükəsizliyinə əmin olmalısınız.

## Dırnaq keratini

Dırnaqlara keratin baxımı tez-tez qırılan və parçalanan dırnaqları gücləndirmək məqsədi daşıyır. Məqsəd dırnaq qırılmalarının qarşısını alaraq daha güclü dırnaqlara sahib olmaqdır.

## SAÇ, DIRNAQLAR VƏ DƏRİNİN EHTİYACI OLAN KERATİNİ NECƏ TƏMİN EDƏ BİLƏRƏM?

Keratin proteini bədənimizdə təbii olaraq istehsal olunur. Ancaq sağlamlıq problemlərinə görə zaman zaman qeyri-kafi ola bilər. Belə dövrlərdə qidalanma yolu ilə keratin əlavələri vermək ən yaxşısıdır. Tərkibində keratin olan qidalardan istifadə etməliyik. Keratin ehtiva edən qidalar bunlardır: soğan, kartof, qızılbalıq, yerkökü və yumurta.



***Ayşən Vəli***

# Qazaxıstanlı politoloq: "Ermənistanın suverenliyi və gələcəyi təhlükədədir"

***Qazaxıstanlı politoloq və ictimai xadim Arman Şurayev "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistanın yürütdüyü siyasətlə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***



*- Qazaxıstanın Almatıda Azərbaycan və Ermənistan xarici işlər nazirləri üçün danışıqlar platforması təqdim etmək təşəbbüsünü necə qiymətləndirirsiniz?*

-Düşünürəm ki, Qazaxıstanın bu mühüm təşəbbüsündən əvvəl münaqişənin hər iki tərəfi ilə kifayət qədər gərgin iş aparılıb və prezident Tokayevin təklifinin Bakıda və İrəvanda qəbul edilməsi olduqca diqqətəlayiqdir. Qazaxıstanın neytral, bərabər məsafəli ölkə olması ilə yanaşı, onu da qeyd edərdim ki, Azərbaycan bizim strateji müttəfiqimiz və Qazaxıstanın güclü mehriban qonşuluq və qardaşlıq əlaqələri olan türkdilli ölkə hesab olunur. Eyni zamanda, Qazaxıstan regional və qlobal səviyyədə danışıqlar üçün ciddi platforma olub və qalır ki, bu da onu kifayət qədər proqnozlaşdırıla bilən sülhməramlı edir, müxtəlif növ münaqişələrin həllinə töhfə verir.

*- Sizin qiymətləndirməyinizə görə, tərəflər Almatıda regional sülh gündəmini irəli apara biləcəkmi?*

-Mənə elə gəlir ki, tərəflər Bakının təklif etdiyi dinc gündəmə gedə biləcəklər, çünki regionda mövcud qüvvələr nisbəti Ermənistanın xeyrinə olmaqdan uzaqdır. Digər tərəfdən, bildiyimiz kimi, pis sülh yaxşı müharibədən üstündür və hətta ən böyük müharibələrdən sonra da danışıqlar masasına oturmaq, məsələləri həll etmək vaxtı gəlir. Əminəm ki, erməni tərəfinin az variantı və manevr imkanları var, xüsusən də Bakının təklif etdiyi sülh gündəliyi heç bir şəkildə alçaldıcı deyil. Əksinə, bu, bizə nəhayət, bütün prioritetləri təyin etməyə və hər hansı ilkin şərtləri tamamilə rədd etməyə imkan verir ki, bu münaqişə bir daha alovlanmasın.

*- Ermənistanın hazırkı daxili siyasi vəziyyətini, daha doğrusu, müxalifətin və erməni kilsəsinin etirazlarını necə qiymətləndirirsiniz?*

- Davamlı məğlubiyyətlər fonunda Ermənistanda daxili siyasi vəziyyət çox ağır olaraq qalır və çox güman ki, daha da mürəkkəbləşəcək. Bu baxımdan heç bir ssenarini, hətta çevrilişi də istisna etmirəm. Kilsə Ermənistandakı siyasi proseslərdə həmişə mühüm rol oynayıb, lakin eyni zamanda, hesab edirəm ki, erməni ruhaniləri və müxalifəti çox gözəl başa düşürlər ki, vaxtı və tarixi geri qaytarmaq mümkün deyil, Qarabağı nəinki hərbi yolla, hər hansı bir başqa yolla da qaytarmaq mümkün deyil. Müxalifətin, kilsənin və ya indiki hakimiyyətin bu cür qisas almaq cəhdi ilə bütün Ermənistanı uduzacaq. Üstəlik, bu halda Ermənistan dövlətçiliyinin mövcudluğu sual altında qalacaq. Ermənilər unutmamalıdırlar ki, İrəvan qədim Azərbaycan torpağıdır.

*- ABŞ və Fransadakı erməni diasporları tərəfindən Ermənistandakı daxili siyasi vəziyyətə müdaxilə etmək cəhdləri ola bilərmi?*

- Fransa və ABŞ bu ölkələrin daxili siyasi gündəmində mühüm rol oynayan böyük erməni diasporlarının vətənidir. Və belə cəhdləri istisna etmək olmaz. Lakin vacibdir ki, Fransa və Amerika hakimiyyətinin özləri üçün də Vaşinqton və Parisə tam sədaqət nümayiş etdirən Paşinyanin hakimiyyətdə olduğu vaxt Ermənistanda daxili siyasi vəziyyəti pozmağın faydası yoxdur.

*- Ermənistanın Qərbə son dönüşünə ehtimal verirsinizmi?*

-Ermənistan Qərbə üz tutmaq istərdi, lakin ölkənin digər ölkələrlə əhatə olunmuş coğrafi mövqeyi, yumşaq desək, tam dost deyil, çətin ki, buna imkan verilsin. Deməli, istənilən halda Ermənistan Azərbaycan, Türkiyə və Rusiya ilə mehriban qonşuluq münasibətlərini saxlamalıdır və onun üçün yeganə düzgün qərar indiki regional uyğunluğu qəbul edib, gələcəyini bu əsasda qurmaqdır. İrəvan nəhayət dərk etməlidir ki, Ermənistanın özünün suverenliyi və gələcəyi təhlükədədir.

***Tərcümə - Elçin Bayramlı***

# "Azərbaycan böyük beynəlxalq tədbirlərin təşkilatçısı kimi müsbət imic qazanıb"

"Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ilin iyununda Rio-de-Janeyroda keçirilən Sammitdə insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq üçün imzalanmış sazişdir". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Kərimli deyib. O bildirib ki, COP abbreviaturası "Tərəflərin Konfransı" mənasını verir: ""Tərəflərin Konfransı" İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının həyata keçirilməsinə nəzarət edən ali qanunverici orqandır. 198 ölkə Konvensiyanın iştirakçısıdır.




COP29 konfransının keçirilməsini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı hesab etmək olar. Bu missiyaya uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl Dünya Uğrunda Həmrəylik İli" elan edilmişdir. Azərbaycan öz əməli fəaliyyəti ilə ölkənin "yaşıl" enerjiyə verdiyi önəmi sübut edir. Məsələn, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmağı hədəfləyir. Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdən biridir. Energetika Nazirliyinin məlumatına görə, ölkənin texniki bərpa olunan enerji potensialı quruda 135 GVt, dənizdə isə 157 QVt təşkil edir. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 GVt, o cümlədən külək enerjisi - üç min meqavat, günəş enerjisi - 23 min meqavat, bioenerji potensialı - 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat qiymətləndirilir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflərinin Konfransı iqlim dəyişikliyi ilə mübarizədə son dərəcə mühüm və dünyada ən əlamətdar hadisələrdən biridir. Şərqi Avropa Qrupu ölkələrinin yekdil qərarı ilə Azərbaycanın konfransın növbəti sessiyasının keçiriləcəyi yer seçilməsi ölkəyə yüksək etimadın göstəricisidir. Azərbaycan artıq böyük beynəlxalq tədbirlərin təşkilatçısı kimi müsbət imic qazanıb. Bu hadisə bütün dünyaya sübut edəcək ki, Azərbaycan təkcə neft-qaz ölkəsi deyil, həm də "yaşıl" iqtisadiyyata prioritet sahə kimi böyük önəm verir.

COP29-un Bakıda keçirilməsi Azərbaycanın dünyada nüfuzunun daha da artırılmasına və ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə birbaşa və maneəsiz çatdırılmasına güclü təkan verəcək. Avrasiya məkanında coğrafi baxımdan Şərqlə Qərb arasında körpü rolunu oynaya biləcək ölkələrin sayı kifayət qədərdir. Onların bəziləri ərazilərinə görə Azərbaycandan dəfələrlə böyük, təbii ehtiyatlarına görə ölkəmizdən dəfələrlə zəngindirlər. Lakin Şərqlə Qərb arasında siyasi, iqtisadi və mədəni körpü rolunu oynamaq, dünyanı çoxsaylı təhdidlər qarşısında qoyan çağırışlara qarşı bəşəriyyəti həmrəyliyə çağırmaq, humanizm prinsplərini, mədəniyyətlərarası dialoqu təşviq etmək missiyası Azərbaycanın qismətinə düşüb və liderlərimizin 1993-cü ildən etibarən həyata keçirdikləri siyasət ölkə ərazisini geostrateji körpüyə çevirə bilib".

Onun sözlərinə görə, Bakının təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat dəhlizləri layihələri, sivilizasiyalararası dialoqun və humanizim dəyərlərinin təşviqi istiqamətində gerçəkləşdirilən və ildən-ilə əhəmiyyətini daha da artıran təşəbbüslər qlobal miqyasda ölkəmizin nüfuzunu daha da artırıb, Azərbaycanın bütün dünyada qlobal məsuliyyətinə, öhdəliklərinə xüsusi həssaslıqla, prinsipiallıqla yanaşan etimadlı dövlət obrazının formalaşmasına zəmin yaradıb: "Ölkəmizin istər Qoşulmama Hərəkatı, istər İslam Konfransı və Türk Dövlətləri təşkilatları, istərsə də BMT çərçivəsində irəli sürdüyü təşəbbüslərin dəstək qazanmasının səbəbini də əsasında əməli, ardıcıl, sistemli fəaliyyət dayanan etimadlı münasibətdə, Prezident İlham Əliyevin həyata keçirdiyi sistemli, ardıcıl, bəşəri dəyərlərin qorunmasına, sülhün, əminamanlığın təmin olunmasına xidmət edən siyasətdə axtarmaq lazımdır."

***S. Ağazadə***



**Elçin Bayramlı**

# Biz niyə Qələbə çaldıq?

**55 milyon insanın həlakı, onlarla ölkənin, on minlərlə şəhər kəndin dağılması ilə müşayiət olunan II Dünya Müharibəsi illəri bəşəriyyət tarixində ən ağır və dəhşətli dövr oldu. Almaniya və İtaliyada meydana gələn faşizm kabusu nəinki bu ölkələrin özünü, bütün bəşəriyyəti təhlükə altına almışdı.**

Bu müharibənin ən böyük hədəfi də SSRİ oldu. Bəşəriyyəti faşizmdən isə elə Sovet İttfaqı xilas etdi. 1945-ci il mayın 8-i gecəsi Almaniyanın təslim olması haqda müqavilə imzalandı- bu, əslində, Yaponiya ilə haqq-hesabın daha sonra çürüdülməsinə baxmayaraq, bəşəriyyət tarixində ən dəhşətli müharibənin sona çatmasını xəbər verirdi.

Böyük Vətən Müharibəsi illərində Sovet vaxtı dünya tarixində misli görünməmiş qəhrəmanlıq göstərdilər. 141-ci il 22 iyun gecəsində Almaniya işğal etdiyi 6 dövlətin orduları ilə birlikdə SSRİ-yə qəfil hücum etmişdi və hazırlıqsız yaxalanan Qızıl Ordu çətin vəziyyətə düşmüşdü.

Düşməndən canlı qüvvə, silah-sursat və hərbi texnika sayına görə 3 dəfə zəif olan Sovet Ordusu bu müharibədə yüksək mənəvi-ideoloji üstünlük, vətənpərvərlik, döyüşkənlik, xalqın birliyi, arxa cəbhənin ağlagəlməz dərəcədə gərgin zəhməti və nəhayət Stalin başqa olmaqla Sovet generalitetinin ağıllı taktikaları sayəsində qalib gəldi. Bəşəriyyətin qorxunc faşizmdən xilas edilməsində respublikamızın da əvəzedilməz xidmətləri oldu. Azərbaycan xalqının oğul və qızları həm agır döyüşlərin getdiyi cəbhə bölgələrində, həm də arxa cəbhədə böyük qəhrəmanlıq nümunələri göstərdilər.

Qısa zamanda respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 özünü müdafiə dəstəsi təşkil olundu. 1941-1945-ci Azərbaycanın 3,4 milyon əhalisindən 600 mindən çoxu cəbhəyə yollanmışdı ki, onlardan da yarısı döyüşlərdə həlak oldu. Azərbaycan diviziyaları Qafqazdan Berlinəcən mübariz döyüş yolu keçdilər.

130-a yaxın azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Bunlardan Həzi Aslanov (2 dəfə), Adil Quliyev, Ziya Bunyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, İsrafil Məmmədov və başqalarını göstərmək olar.

Bundan başqa, 30 nəfər Şərəf ordeni ilə təltif olundu. Generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz qəhrəmanlığı ilə xalqımızın şərəfli tarixinə yeni sətirlər yazdılar. Ümumilikdə isə, 170 mindən artıq Azərbaycan əsgər və zabiti SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edildi.

Respublika iqtisadiyyatı cəbhə üçün işləməyə başladı. Az bir vaxtda Bakı Qızıl Ordunun ən mühüm cəbbəxanalarından birinə çevrildi. Müharibə illərində Bakıda cəbhə üçün 130 növ silah və döyüş sursatı da istehsal olunub.

Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışaraq cəbhəni və sənayemizi yanacaqla təmin edirdilər. 1941-1945-ci illərdə Azərbaycandan cəbhəyə yüksək keyfiyyətli benzin, silah, döyüş sursatı, paltar və ərzaqla dolu yük qatarları və gəmilər yollanırdı. 1941-ci ildə neftçilərimizin fədakar əməyi nəticəsində Azərbaycanın tarixində ən çox-23,5 millyon ton istehsal olundu ki, bu da SSRİ-də istehsal olunan neftin 70%-dən çoxunu təşkil edirdi.

Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, o cümlədən 22 milyon ton benzin və başqa neft məhsulları vermişdilər. Qətiyyətlə demək olar ki, faşizm üzərində qələbənin qazanmasında Bakı nefti də vacib amillərdən biri oldu.

Lakin Azərbaycan xalqının bu müharibədə əsas xidməti cəbhəyə neft vermək deyildi. Yüz minlərlə əsgərimizin qəhrəmancasına döyüşməsi, o vaxtkı respublika rəhbəri Mircəfər Bağırov başda olmaqla xalqımızın arxa cəbhədə mütəşəkkil və gərgin fəaliyyəti əsas rol sayılmalıdır. Müharibə illərində neft sənayesi naziri olmuş Nikolay Baybakovun sözləri ilə desək, "faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir digər respublika etməmişdir".




# "Azərbaycan xalqının qəhrəmanlığı yaddaşlardan heç vaxt silinməyəcək"



"Böyük Vətən müharibəsi adlandırılan savaşın sona çatmasından, faşizm üzərində Sovet xalqlarının əldə etdiyi qələbədən 79 il keçir. Bu qələbənin əldə olunmasında Azərbaycan xalqı xüsusi rol oynayıb. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputatın sozlərinə görə, bu tarix dünyanın siyasi təqvimində bəşəriyyətin gələcəyinə ciddi təhdidlər, real təhlükələr yaradan bir mürtəce ideologiya üzərində əldə edilmiş bu qalibiyyət, əslində, bəşəriyyətin zəfər triumfudur: "Bu gün qürurla və iftixarla qeyd edirik ki, çoxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı faşizm üzərində qələbəyə müstəsna töhfələr verib. 600 mindən çox soydaşımız Qafqazdan Berlinədək şanlı döyüş yolu keçərək unudulmaz qəhrəmanlıq dastanı yaradıb.

Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 271-ci, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər, Polşa, Çexiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında yaxından iştirak ediblər. Müharibə illərində göstərdikləri igidliyə görə 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Müharibədə Azərbaycan neftçilərinin əməyi əvəzsizdir. Azərbaycandan olan hərbçilərin və neftçilərin, ümumilikdə Azərbaycan xalqının qəhrəmanlığı və qorxmazlığı faşizm üzərində qələbədə mühüm rol oynamışdır. Bütün dünya Azərbaycan xalqının cəsarətinin və qəhrəmanlığının şahidi olmuşdur. Hətta Sovet İttifaqı Marşalı Georgi Jukov da bunu etiraf edərək qeyd etmişdir ki, Bakı neftçiləri Vətənimizin müdafiəsinə, onun düşmən üzərində qələbəsinə nə qədər lazımdırsa, o qədər də yanacaq verirdi. Bunlar tarixi faktlardır və eyni zamanda neftçilərimizin əməyinə və zəhmətinə verilmiş yüksək qiymətdir.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra 9 May - Qələbə Gününün rəsmi dövlət bayramı səviyyəsində qeyd edilməsinə başlanıldı. 1994-cü ildən etibarən faşizm üzərində tarixi qələbənin il dönümü hər il respublikamızda təntənəli şəkildə qeyd olunur. Heydər Əliyev hər il müharibə veteranları ilə görüşər, onların qayğıları ilə maraqlanar, problemlərinin yoluna qoyulması üçün tapşırıq və göstərişlərini verərdi. Bu gün də bu siyasət dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən davam etdirilir. Bu gün həmin müharibənin iştirakçısı olan insanlara göstərilən böyük diqqət və qayğı Prezident İlham Əliyevin mənəvi dəyərlərimizə bağlılığının, öz xalqının qəhrəmanlıq salnaməsinə dərin ehtiramının və Ulu Öndərin ideyalarını yaşatmasının bariz təcəssümüdür. Prezident İlham Əliyevin 1941-1945-ci illər müharibəsi haqqında söylədiyi fikirlər bunları deməyə əsas verir. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, biz tarixdə bu əlamətdar günə qayğı ilə yanaşır, döyüş meydanında və arxa cəbhədə qələbəyə töhfə verənlərin xatirəsini ehtiramla yad edir, öz həyatları bahasına dünyanı faşizmdən xilas etmiş zabit və əsgərlərin igidliklərinə hörmətimizi bildiririk".



*Səbinə Hüseynli*



İLHAM

# TikTok bağlansa vəziyyət necə olacaq?

Müasir dünyamızın yenilikləri çoxdur, bəlkə də minlərlədir. Hər birinin özünəməxsus formada müsbət cəhətləri var. Mənfi xüsusiyyətləri olana yeniliklər də az deyil. Sosial şəbəkələr isə müxtəlif xüsusiyyətləri özündə birləşdirir. Yəni, bu əndərəbadi yenilik həm müsbət, həm də mənfi cəhətlərə malikdir. Çoxluğun fikrinə əsasən demək olar ki, "Facebook", Google , "YouTube" ,TikTok, WhatsApp , "Instagram" və bu kimi digər sosial şəbəkələr daha çox mənfi cəhətlərə malikdir. Məhz buna görə də, bəzi dövlətlərin hakimiyyətləri qorxulu hesab olunan düşməndən canlarını qurtarmağa çalışırlar. Artıq Böyük Britaniya, ABŞ, Fransa, Argentina, Seneqal, Somali, Almaniya, Hindistan və nəhayət, bu günlərdə ABŞ bəzi sosial şəbəkələrə məhdudiyyətlərin qoyulması barədə qərar verib. Qırğızıstan Mədəniyyət, İnformasiya, İdman və Gənclik Siyasəti Nazirliyi ölkədə TikTok-un fəaliyyətinin dayandırılması ilə bağlı qərar verib. ABŞ TikTok-un fəaliyyətinə qadağa qoyulması təhlükəsizlik məsələləri ilə əlaqələndirilir. ABŞ Senatı TikTokun ölkə ərazisində yayımlanmasını qadağan edən qanun layihəsini təsdiqləyib. Prezident Bayden də qanun layihəsini öz imzası ilə təsdiqləyib.

Qanuna görə, dövlət orqanlarında, büdcə təşkilatlarında çalışan amerikalılara TikTok tətbiqini yükləmək və özlərinə məxsus telefonda ondan istifadə etmək qadağandır. Xoruzun quyruğu bu məsələyə münasibətdə görünür. Aydın olur ki, demokratiya, söz və mətbuat azadlığı, sərbəst internet resurslarına giriş, sadəcə, ABŞ, Fransa, Almaniya, Böyük Britaniya və digər dövlətlər üçün, sadəcə, gəlişigözəl olması üçün deyilən boşboğazlıqdan başqa bir şey deyil. Niyə ABŞ, Fransa, Almaniya, Böyük Britaniya TikTok-un ölkə ərazində yayımlanmasına qadağa qoyub? Birmənalı şəkildə demək olar ki, Çin Xalq Respublikasından qorxurlar. Çünki TikTok Çin şirkətidir. Çəkinirlər ki, Çin onlara aid siyasi, hərbi məlumatlarını əldə etməklə onların sonunu yaxınlaşdıra bilər. Qadağanın tətbiq olunmasından kim incik qalacaq, hansı şəxslər, dövlətlər, xalqla onların qərarlarına necə münasibət bildirəcəkləri o qədər də önəmli deyil. Əsas odur ki, Çinin uzaqlara hesablanan məqsədlərinə və niyyətlərinə qarşı qabaqlayıcı tədbirlər görürlər. Nəzərə almaq lazımdır ki, bir qədər əvvəl 500 minə qədər Google+ istifadəçisinin gizli fərdi məlumatlarının oğurlanması barədə dünya mətbuatında informasiyalar yayılmışdır. O zaman ABŞ susmuşdur. Çünki Google+ özününküdür.

Əgər bəzi xarici ölkələr də olduğu kimi Azərbaycanda da sosial şəbəkələrin bağlanması, internet resurslarına çıxışın məhdudlaşdırılması halları yaşansaydı, özlərini ağıllı göstərməyə çalışan dövlətlər hay-küy qaldırıb, ardıcıl şər və böhtan xarakterli açıqlamalar yayardılar. Azərbaycanın dağıdıcı müxalifəti deyilən ünsürlər dövriyyə daxil olub, ağıllarına deyil ağızlarına gələnləri paylaşardılar. Fakt ondan ibarətdir ki, nəzarətsiz zona hesab olunan sosial şəbəkələrin imkanlarından geninə-boluna bəhrələnən dağıdıcı müxalifət və onların ətrafında olan trollar hər gün müxtəlif sosial şəbəkələrdə Azərbaycanın imicinə zərbə vurmağa hesablanan statuslar yazır, videolar paylaşırlar. Söyüş halları, insanların şəxsiyyətinin alçaldılması, təhqir edilməsi, dövlət atributlarına qarşı saygısızlıq sosial şəbəkələrin bəzi istifadəçilərinin adət etdikləri hallardandır. Buna qarşı təəssüflər olsun ki, ciddi cəza tədbirləri görülmür. Halbuki, Cinayət Məcəllәsinin bu əməllərə bağlı bir neçə maddəsi nəzərdə tutulur. Bunlar 271, 272, 273, 273-1-2-ci maddələrdir. Bu kimi əməllər mütəmadi olaraq işin araşdırılması nəticəsində müəyyən olunursa ki, burada kompüter sisteminə qanunsuz daxilolma mövcuddur, orada saxlanan məlumatlara qanunsuz daxil olmaqla Cinayət Məcəllәsinin 271.1 ci maddəsi ilə cəzalandırılır və 2000 manatdan 4000 manata qədər cərimə etməklə və ya 2 ilə qədər azadlıqdan məhrum etməklə cəzanlandıra bilir. Əgər kompütərə daxil olaraq məlumatlar qanunsuz ələ keçirmək niyyəti ilə edilərsə bu zaman Cinayət Məcəllәsinin 272 maddəsi ilə məsuliyyət yaranır və 272.1-ci maddəsinə görə 2000-dən 4000-ə qədər cərimə və ya 2 ilə qədər azadlıqdan məhrumetmə nəzərdə tutulub. Görünən ondan ibarətdir ki qanunlar o qədər də sərt deyil. Çünki, sosial şəbəkələr üzərindən qurulan rüsvayçı olayların sayı artmadadır. Lazımdır ki, bəzi sosial şəbəkələrə qarşı dövlət nəzarəti həyata keçirilsin. Sosial şəbəkələr də səhifələr yaratmaq istəyənlər əvvəlcədən üzərilərinə öhdəliklər götürmələri məsələsi qoyulsun. Həm də istifadəçilərin kimliyi, ünvanları, telefon nömrələri səhifələr də əks olunsun. İki, üç və daha artıq saxta səhifə yaradanlara qarşı sərt cəza tədbirləri görülsün.

Fakt ondan ibarətdir ki, insanlar var ki, müxtəlif adlar altında bir neçə saxta səhifəsi mövcuddur. Ayrı-ayrı şəxslərin təhqir edilməsi, narkotika alış -verişinin həyata keçirilməsi, dövlətin imicini ləkələməyə hesablanan dezinformasiya xarakterli informasiyaların yayılması, şoular, məzhəkələr saxta səhifələr üzərindən həyata keçirilir. Açıq bazarın alverçiləri də az deyil. Xaricdəki antimilli ünsürlər internet TV-lər yaradaraq insanların heysiyyatına toxunan, təhqir edən açıqlamalar, müsahibələr yayırlar. Qısası, sosial şəbəkələrin narahatlıq gətirən kifayət qədər xüsusiyyətləri var. Ona görə də bu bəladan xilas olmaq üçün lazımdır ki, dövlətimiz təxirəsalınmaz tədbirlər görsün.

# İqlim problemlərinə Paris baxışı: **saziş nə deyir?**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*



Paris sazişi, 197 ölkənin iqlim böhranının qarşısını almaq üçün birgə hərəkət etməli olduqları barədə razılaşmaya gəldikləri haqda beynəlxalq müqavilədir. Paris sazişi mahiyyət etibarilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına əsaslanır. Bu saziş, Kioto Protokolunun müddətinin bitdiyi 2020-ci ildən sonra iqlim dəyişikliyi prosesini tənzimləmək məqsədi daşıyır. Paris sazişinin məqsədi 2020-ci ildən sonrakı dövrdə iqlim dəyişikliyi təhlükəsinə qarşı qlobal sosial-iqtisadi dayanıqlığı gücləndirməkdir. Bu məqsəd mədən yanacaqlarının -neft və kömürdən istifadənin tədricən azaldılmasını və bərpa olunan enerjiyə meyllənməni tələb edir.

Paris sazişi iqlim dəyişikliyinə qarşı beynəlxalq əməkdaşlığı fərqli şəkildə davam etdirir. Paris razılaşması və konvensiyaya əlavələr sistemi, qlobal emissiyalarda ən yüksək paya sahib olan ABŞ və Çinin öz məsuliyyətini anlaması, eləcə də bütün tərəflərin bu işdə əməkdaşlıq etməsini şərtləndirir. Bu razılaşma, iqlim böhranının qarşısını almaq üçün qlobal orta səth temperaturunun artımını 2 dərəcə ilə məhdudlaşdırmaq və mümkünsə 1,5 dərəcədən aşağı saxlamaq məqsədi daşıyır.

Təbii olaraq, ”1,5 ilə 2 dərəcə arasında fərq nədir” kimi suallar yaranır. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel (IPCC) tərəfindən təqdim edilən məlumatlar 1,5°C istiləşmənin 2°C-dən nisbətən daha təhlükəsiz olacağını vurğulayır. IPCC-yə görə, orta səth temperaturu 1,5-ə yüksəldikdə 100% artması gözlənilən daşqın riski 2°C istiləşmə ilə 170%-ə çatacaq. Bundan əlavə, şiddətli quraqlığa məruz qalan insanların sayı 1,5°C artımla 350 milyona, 2°C artımla isə 410 milyona yüksələ bilər. Həddindən artıq isti hava dünya əhalisinin 9%-nə deyil, 28%-nə təsir edə bilər. Lakin məlumdur ki, hər 0,5°C artım kənd təsərrüfatında məhsuldarlığı daha da aşağı salacaq. Qlobal orta temperatur artımı 2 dərəcəni keçərsə, insan həyatına birbaşa təsir edəcək dağıdıcı nəticələr yaranacaq.

Sazişin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, Kioto Protokolundan fərqli olaraq, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr öz milli təşəbbüsləri ilə təsirin azaldılmasında iştirak edirlər. Yəni, Paris İqlim Sazişində iştirakçı ölkələrə emissiyaların azaldılması üçün hər hansı bir hədəf norması qoyulmur. İqlimi qorumaq üçün emissiyalar azaldılmalı və qalıq yanacaqlardan istifadə edilməməli olsa da, tərəf ölkələri, nə vaxt və nə qədər istixana qazlarının azaldılması ilə bağlı öhdəlik götürəcəklərini özləri qərar verir və bu öhdəlikləri milli töhfə bəyannamələri vasitəsilə çatdırırlar.







Paris sazişi ilə yaradılmış yeni rejimin Kioto protokolundan fərqləndiyi sahələrdən biri də onun ölkə fərqi qoymamasındadır. Saziş, yalnız inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı fərqdən istifadə edir. İnkişaf etməkdə olan ölkələr qrupunun öz daxilində nümayiş etdirdiyi müxtəlifliyi qəbul edir. Eyni zamanda, inkişaf etməkdə olan ölkələr arasında şəffaflıq, icra və uyğunluq mexanizmləri kimi əməliyyat tənzimləmələri yaradaraq, güzəştli vəzifə öhdəlikləri sistemi təqdim edir. Yəni, inkişaf etmiş ölkə ilə az inkişaf etmiş ölkənin öhdəlikləri eyni deyil.

Qeyd etdiyimiz kimi, iqlim dəyişikliyini nəzarətdə saxlamaq üçün səthin orta temperaturunun artımını 1,5, ən pis halda isə 2 dərəcədən aşağı saxlamalıyıq. Bu istiqamətdə hansı ölkələrin məsuliyyətinin çox olması məsələsi də gündəmdədir. Təbii ki, bu çox asan hesablama deyil. Bunu təyin etmək üçün cari emissiyalar, tarixi emissiyalar və adambaşına düşən emissiyalar kimi bir neçə meyara baxmaq lazımdır. Ən son məlumatlara görə, Çin, ABŞ, Aİ və Hindistan qlobal cari emissiyaların 50 faizinə cavabdehdir. Əvvəlki tarixlərin emissiyalarına görə məsuliyyət, sənaye inqilabının başlanğıcı hesab edilən 1750-ci ildən bəri qlobal orta temperaturun artmasına ölkələrin təxmini töhfəsi ilə ölçülür. ABŞ, Rusiya və Avropa bu baxımdan Çini uzun müddət qabaqlayırdı. Adambaşına düşən emissiyalarda isə əhali sayına görə çox olan ölkələrin rolunun olduğu kimi anlaşılsa da, əslində, bu belə deyil. Məsələn, Çin kimi əhalisi çox olan ölkələr ümumilikdə daha çox emissiya istehsal etsələr də, adambaşına düşən emissiyalarda birinci yerdə olmaya bilərlər. Məsələn, ABŞ-da adambaşına düşən tullantıların miqdarı 18 ton olduğu halda, Çində bu, 8 ton civarındadır.

Avropa İttifaqı 2030-cu ilə qədər emissiyalarını 55% azaltmağı və 2050-ci ilə qədər karbon neytral olmağı hədəfləyir. Çin 2060-cı ilə qədər karbon neytral olmağı hədəfləyir, Yaponiya, Cənubi Koreya, Cənubi Afrika və Kanada sıfır emissiya planlarını açıqladılar. 2020-ci ilin sonuna kimi 30 ölkə öz milli qanunvericilik bazasında karbon neytrallığı hədəfini reallaşdırdı. Digər tərəfdən, 19 fevral 2021-ci ildə Paris Sazişinə rəsmən qayıdan ABŞ administrasiyası 2050-ci ildə karbon neytral olmaq və 2035-ci ildə elektrik enerjisi istehsal sektorunun karbonsuzlaşdırma hədəflərini açıqladı.

Azərbaycan İqlim Dəyişikliyinə dair Paris Sazişini imzalayaraq atmosfer havasına buraxılan istixana emissiyalarını 2030-cu ilədək 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib. Buna imkan verən infrastruktur təkmilləşdikcə, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdən birinə çevrilir. Hesablamalara görə, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji üzrə 380 meqavatdır. Dağ çaylarının potensialı isə 520 meqavat həcmində qiymətləndirilir.





***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
9 may
2024-cü il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Kimlər əmək pensiyasına 5 il tez çıxmaq hüququna sahibdir?




Prezident İlham Əliyev "Əmək pensiyaları haqqında" qanuna dəyişikliklərin edilməsi ilə bağlı sənədi imzalayıb. Bu sənədə əsasən, bir sıra şəxslərin daha tez pensiyaya çıxmaq hüququ təsbit edilib. Belə ki, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqları qəyyumluğa götürüb saxlamaq daxil olmaqla, bütövlükdə 5 uşağı olan valideynlər daha tez pensiyaya çıxmaq hüququ əldə edəcək. Qeyd edək ki, əvvəlki qanunda bu hüquq yalnız analara şamil edilirdi. Yeni qanunla atalar da 60 yaşında pensiyaya çıxmaq hüququ əldə edəcəklər.

"Qadın vəfat etdiyi və uşağın kişinin himayəsində olduğu və növbəti ailə qurduğu halda da kişilər 5 il erkən pensiya hüququ qazanacaqlar, bu dəyişiklik..."

Qanunun əhəmiyyəti haqqında danışan iqtisadçı Kamran Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, yeni dəyişikliklər və güzəştli şərtlər ilə pensiyaya çıxma hüququ olan vətəndaşların siyahısı genişləndirilib. Erkən pensiyaya çıxmaq hüququna malik olan vətəndaşlarımızın sayının artırılması müsbət haldır: "Yeni dəyişikliyə əsasən qadın vəfat etdiyi və uşağın kişinin himayəsində olduğu və növbəti ailə qurduğu halda da kişilər 5 il erkən pensiya hüququ qazanacaqlar. Bu dəyişiklik həmin ailələrin sosial vəziyyətinin yaxşılaşmasına səbəb olacaq. Nəzərə almaq lazımdır ki, vətəndaşların, xüsusilə aztəminatlı kontingentin qayğıları və rifah halının dövlətin diqqət mərkəzində olduğunun bariz göstəricisidir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, daha erkən pensiyaya çıxmaq hüququna malik olan vətəndaşlarımızın sayının artırılması müsbət haldır. Çünki iş rejimindən, həyat şəraitindən asılı olaraq onların sosial müdafiəsinin daha da gücləndirilməsi vacibdir: "Xatırladım ki, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"na dəyişiklik edib. Belə ki, neft mədənlərində, onun saxlanılması və ötürülməsi sahəsində nəzarət-ölçü cihazları və avtomatika qurğularının təmiri və xidməti işləri ilə məşğul olan nəzarət-ölçü cihazları və avtomatika üzrə çilingərlər, əsas istehsalat sahələrində neft-mədən avadanlıqlarının, kompressor qurğularının təmiri ilə bilavasitə məşğul olan təmirçi çilingərlər, əmtəə operatorları və digər peşə sahibləri daha tez pensiyaya çıxa biləcək".

*Günel CƏLİLOVA*

# "Qalatasaray" mərakeşli ulduzu birdəfəlik transfer etdi

"Qalatsaray" klubu Hakim Ziyeşi transfer edib. SİA xəbər verir ki, bu barədə idman jurnalisiti Fabrizio Romano özünün "X" hesabında paylaşım edib. Onun sözlərinə görə, "Qalatasaray" klubu "Çelsi"dən icarə əsasında aldığı Hakim Ziyeşin komandada qalmasını istəyib və tərəflər arasında müqavilə imzalanıb. Qeyd edək ki, Hakim Ziyeş 2023-cü ilin avqustunda "Çelsi"dən icarə əsasında alınmışdı.





# Abşeronda evlərdən pul və qızıl oğurlayan qadın yaxalanıb

Bir neçə evdən böyük məbləğdə valyuta və qızıl oğurlanıb. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə Digah kəndində və Mehdiabad qəsəbəsində müxtəlif vaxtlarda iki evdən ümumilikdə 1400 avro, 800 ABŞ dolları və 3400 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən qadın müəyyən olunaraq saxlanılıb. Faktlarla bağlı araşdırma aparılır.

# Uşaqlarda yuxu problemi nə ilə bağlıdır?

## PSİXOLOQ İZAH ETDİ



"Uşaqlarda hər hansı narahatlıqlar ananın hamiləlik dövrünü necə keçirməsi ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Nərgiz Hüseynova deyib. Psixoloq bildirib ki, bu sahədə hazırda çox böyük tədqiqatlar var: "Hansılar ki, ananın uşağa mayalanmadan öncəki bir ili, ana və atanın bu bir ili necə yaşadıqları, hansı hissləri keçirdikləri, hansı konfliktlərdə olduqları, 9 ay ananın hamiləlik dövrü, uşaq doğulduqdan sonra bir il ana və atanın yaşadıqları və sair hamısı uşaqlara kodlanır. Əgər ana hamiləlik dövründə və digər zamanlarda narahatlıq keçiribsə, o zaman uşaqlarda da müxtəlif narahatlıqlar ola bilər. Bunu indi yeni psixosematika deyir. Psixosematika elmi bunu təsdiq edir. Çünki genetika elmləri bunu araşdırır və təsdiqlər də var.

Yuxu problemlərinin psixoloji tərəfləri bunlar idi. Fiziki cəhətdən də narahatlıq, əlbəttə, ola bilər. Amma psixoloji cəhətdən 3 yaşa qədər uşaq anayla, ümumiyyətlə, sıx bağlı olur. Necə ki, uşaq ana bətnində özünü ana ilə bir hiss edirsə, 3 yaşa qədər ananın bütün hisslərini uşaq da keçirir. Ona görə psixoloqlar adətən kiçik uşaqlarla işləyəndə daha çox ana ilə iş görürlər. Çünki ana ilə, xüsusilə də 5 yaşa qədər uşaqların anaları ilə işləyəndə çox möcüzəli dəyişikliklər baş verir. Burada ananın hisləri çox vacib rol oynayır. 5-6 yaşdan sonra isə bu hisslər yarıya enir. Yəni 5-6 yaşda artıq valideynlə də, uşaqla da paralel işlənməlidir".

*Söylü Ağazadə*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3200